KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

AYLIQ DƏRGİ

ISSN 2218-2772
khazar-review.khazar.org

№ 434 Dekabr 2023





# "NEON" ŞADLIQ SARAYINDA XƏZƏR UNİVERSİTETİNİN YENİ İL ŞƏNLİYİ







Dekabrın 26-da "Neon" şadlıq sarayında Xəzər Universitetinin Yeni il şənliyi keçirildi. Universitetin tələbələrindən ibarət musiqi qrupunun konserti ilə başlayan tədbirdə xor və solo mahnılar, rəqslər ifa olundu.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı universitet kollektivini bayram münasibətilə təbrik etdi, əldə olunmuş nailiyyətlərdən danışdı, yeni ildə əməkdaşlara həm şəxsi, həm də iş həyatında uğurlar arzuladı.

Şadlıq sarayının müsiqi qrupu tərəfindən davam etdirilən konsertdə universitet kollektivinin hazırladığı proqram təqdim olundu. Əməkdaşlar və müəllimlər, xor kollektivi mahnı və rəqslər ifa etdilər. Bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.










# NEW YEAR PARTY OF KHAZAR UNIVERSITY AT "NEON" BANQUET HALL

Khazar University's New Year celebration took place on December 26, at the "Neon" banquet hall. The event commenced with a concert by the university's student music group, featuring choir performances, solo songs, and dances

Prof. Acad. Hamlet Isakhanli, the university's founder and chairman of the Board of Directors and Trustees, extended holiday greetings to the university staff during the celebration. He highlighted the achievements and conveyed wishes for success in both personal and professional endeavors in the coming year.

The university team presented a program at the concert, followed by performances from the music group of the banquet hall. Staff and faculty members participated in the celebration, contributing to the festive atmosphere with choir performances, songs, and dances. The New Year party concluded on a joyful note.



# İÇİNDƏKİLƏR


Nailəxanım Muzeyi təqdim edir: "Tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar" seriyasının növbəti kitabları: "Heyran Xanım Dünbüli" ; "Nailəxanım İsayeva" ...... 6-7
Xalq şairi Nigar Rafibəylinin 110 illiyinə həsr olunan ədəbi-bədii tədbir ........ 8
"Xəzər"in tələbələri Beynəlxalq STEAM Azərbaycan festivalının qalibləridir ........ 12
Tələbə Məclisinə seçkilər keçirilib ........ 13
Beynəlxalq Təhsil İmkanları Forumunda Xəzər Universitetinin fəaliyyəti təşəkkürnamə ilə mükafatlandırılıb ........ 14
Əcnəbi tələbələr üçün "Təmiz Şəhər" sənaye sahələrinə məlumat turu ........ 15
Xəzər Universitetinin reqbi komandası diploma layiq görülüb........ 19
Xəzər Universitetində Somatik Hüceyrə Nüvəsi Transferi üzrə 1-ci Birgə Elmi Seminar ........ 20
Cintana Education-dan dəvət olunmuş qonaq mühazirəçinin seminarları ........ 24
Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzlə görüş........ 27
Dünya Vahid Sağlamlıq Gününə həsr olunmuş tədbir........ 28
İstanbul Kültür Universitetinin nümayəndəsi ilə görüş ........ 30
İqtisadiyyat və menecment departamentinin koordinatoru turizm üzrə ixtisaslaşmış təhsil müəssisələrinin ilk toplantısında ........ 31
Strasburq Universitetinin nümayəndələri "Xəzər"də ........ 32
Erciyes Universitetindən dəvət olunmuş professorun seminarları........ 36
Nəfəs klinikasının təcrübəli həkimi "Xəzər"in qonağı olub ........ 39
Naxçıvanda İnfotur ........ 40
Naxçıvan Musiqi Kollecində........ 41
Xəzər Universitetinin əməkdaşları Naxçıvan Dövlət Universitetində ........ 42
Çinin Hebei İqtisadiyyat və Biznes Universitetinin əməkdaşları Xəzər Universitetində ........ 46
*Акиф Ализаде.* Право на счастье ........ 48
*A.Əşrəf.* Xoşbəxtlik arzulayıram hamınıza! ........ 52
Xəzər Universitetinin Psixologiya departamentinin təşəbbüsü ilə "Yaradıcı psixologiya simpoziumu" keçirilib........ 58
"2-ci milli ardıcıl tərcümə" müsabiqəsinin yarımfinal mərhələsi üçün seçimlər başlandı ........ 60
"Xəzər"in əməkdaşı və tələbəsi Dövlət Miqrasiya Xidmətində keçirilmiş tədbirdə........ 61
"Norm Sement" Zavodunda sahə gəzintisi........ 66
Xəzərin əcnəbi və yerli tələbələri Şamaxıda ........ 68
"Xəzər"in xarici nəşrləri........ 72


*Jurnalın üz qabığında: Təbiət elmləri və mühəndislik fakültəsinin tələbəsi Leyla Mustafayeva*


1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində**
mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Nailekhanim Museum Presents: The Next Books of the Series "Women Who Made a Mark in History and Contributed to Azerbaijani Culture" : "Heyran Khanım Dunbuli"; "Nailekhanım Isayeva"** ........ 6-7
**Literary and Artistic Celebration Commemorating the 110th Anniversary of People's Poet Nigar Rafibeyli** ........ 8
**Khazar University Triumphs at International STEAM Azerbaijan Festival** ........ 12
**Student Assembly Elections Conducted** ........ 13
**Khazar University's Activity Recognized with Certificate of Appreciation at the International Education Opportunities Forum** ........ 14
**Information Tour to "Clean City" Industries for International Students** ........ 15
**Khazar University Rugby Team Receives Diploma** ........ 19
**Khazar University Hosted 1st Joint Scientific Seminar on Somatic Cell Nuclear Transfer** ........ 20
**Seminars of a Guest Lecturer From Cintana Education** ........ 24
**Meeting with International Center for Migration Policy Development** ........ 27
**Event dedicated to the World One Health Day** ........ 28
**Meeting with Istanbul Culture University Representative at Khazar University** ........ 30
**Coordinator of the Department of Economics and Management at the First Meeting of Tourism-Specialized Educational Institutions** ........ 31
**Delegates From the University of Strasbourg and Khazar University** ........ 32
**Guest Professor Seminars from Erciyes University** ........ 36
**Experienced Doctor of Nafas Clinic Visits Khazar University** ........ 39
**Infotur in Nakhchivan** ........ 40
**At Nakhchivan Music College** ........ 41
**Khazar University Representatives Visit Nakhchivan State University** ........ 42
**Employees of China's Hebei University of Economics and Business at Khazar University** ........ 46
*Akif Alizade*. **Right to Happiness** (*in Russian*) ........ 48
*A.Ashraf*. **I Wish Happiness to All of You!** (*in azerbaijani*) ........ 52
**"Creative Psychology Symposium" Held at Khazar University's Psychology Department Initiative** ........ 58
**Commencement of Semi-Final Selections for the "2nd National Consecutive Interpretation Contest"** ........ 60
**Khazar University Representative and Student Engage in State Migration Service Event** ........ 61
**Field Trip at "Norm Cement" Plant** ........ 66
**International and Local Students of Khazar University in Shamakhi** ........ 68
**"Khazar"s Foreign Publications** ........ 72

*On the cover of the journal: Leyla Mustafayeva, a Student of the School of Science and Engineering*

It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Editorial Secretary**: Valeh Mirza

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

## NAİLƏXANIM MUZEYİ TƏQDİM EDİR: "TARİXDƏ İZ SALAN, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TÖHFƏ VERƏN QADINLAR" SERİYASININ NÖVBƏTİ KİTABLARI




### "HEYRAN XANIM DÜNBÜLİ"

Seriyanın (redaktoru Hamlet İsaxanlı) "Heyran Xanım Dünbüli" adlı 7-ci kitabı Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxmışdır. Müəllifi Təhminə Əsgərovadır. Kitabda Azərbaycanın qadın şairləri arasında seçilən, Füzuli poeziya məktəbinin nümayəndəsi, əsasən 19-cu əsrdə yazıb yaratmış Heyran xanımdan və onun mənsub olduğu Kəngərli nəslinin tanınmış qadınlarından bəhs edilir.

Oxuculara Heyran xanımın doğulduğu yer və ailəsi, Naxçıvandan Təbrizə köçməsi, şəxsi həyatına işıq salan "Divan"ı, əsərlərinin tədqiqi tarixi, Kəngərli nəslinin məşhur qadınları – Qönçəbəyim, Zərrintac xanım, Xanbikə xanım, Xurşid Qacar haqqında geniş məlumat verilir.

Heyran xanımın şeirlərindən seçmələr də kitabda yer almışdır. Kitab zəngin və nəfis tərtibata malikdir. Heyran xanımın xalq rəssamları Oqtay Sadıqzadə, Davud Kazımov (üz qabığında), Qəyyur Yunus tərəfindən çəkilmiş portretləri oxuculara təqdim olunur. Kitabın sonunda kiçik lüğət də verilmişdir.

### "HEYRAN KHANIM DUNBULI"

Khazar University Publishing House released the 7th book in the series, entitled "Heyran Khanim Dunbuli," (edited by Hamlet Isakhanli). Authored by Tahmina Asgarova, the book explores the life and contributions of Heyran Khanim, an eminent female poet representing the Fuzuli school of poetry in Azerbaijan during the 19th century and the famous women of the Kangarli generation to which she belongs.

The book offers detailed insights into Heyran Khanim's origins, family background, her move from Nakhchivan to Tabriz, and her personal life illuminated by the "Divan." It also delves into the history of researching her works and introduces notable women of the Kangarli generation, including Gonchabeyim, Zarrintaj Khanim, Khanbika Khanim, and Khurshid Gajar.

Included in the book are selected poems by Heyran Khanim, presented in a rich and elegant layout. The publication features portraits of Heyran Khanim drawn by People's artists Ogtay Sadigzade, Davud Kazimov (on the cover), and Gayyur Yunus. Additionally, a concise glossary is provided at the end of the book.

## NAILEKHANIM MUSEUM PRESENTS: THE NEXT BOOKS OF THE SERIES "WOMEN WHO MADE A MARK IN HISTORY AND CONTRIBUTED TO AZERBAIJANI CULTURE"

## "NAİLƏXANIM İSAYEVA"




Seriyanın (redaktoru Hamlet İsaxanlı) "Nailəxanım İsayeva" adlı 8-ci kitabı Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxmışdır. Müəllifi filologiya elmləri doktoru, Dos. İsaxan İsaxanlıdır. Kitab tanınmış pedaqoq və maarifçi Nailəxanım İsayevanın həyat və fəaliyyətindən bəhs edir.

Kitabın "Həyatı və təhsili", "Ailəsi" bölümlərində Nailəxanım İsayevanın həm doğulub boya-başa çatdığı ailəsindən, həm də şəxsi ailəsindən söhbət açılır. Ailə üzvləri təqdim olunur. "Maarifçilik-quruculuq fəaliyyəti" bölümündə həyat yoldaşı Prof. Akad. Hamlet İsaxanlı ilə birlikdə Xəzər Universitetinin, sonralar Bakı, Sumqayıt və Gəncə "Dünya" məktəblərinin yaradılmaısı və fəaliyyəti sahəsindəki birgə gərgin əməkdən, əslində mübarizədən, Nailəxanım İsayevanın "Dünya" məktəbi kompleksinə nümunəvi rəhbərliyindən geniş söhbət açılır.

Kitabın "Musiqi fəaliyyəti" bölümündəNailəxanım İsayevanın bəstələdiyi mahnılardan və onların məşhur və tanınmış ifaçılarından bəhs olunur.

"Şəxsiyyəti" bölümündə Nailəxanım İsayevanın zəngin mənəvi aləmi açılır. Sonda yerli və xarici həmkarlarının, məşhur sənət adamlarının onun haqqında fikirləri verilmişdir.

Kitabdakı bölümlər çoxlu fotoşəkillərlə müşayiət olunur.

## "NAILEKHANIM ISAYEVA"

Khazar University Publishing House released the 8th book in the series (edited by Hamlet Isakhanli) entitled "Nailekhanim Isayeva". The author is Doctor of Philological Sciences, Assoc.Prof. Isakhan Isakhanli. The book explores the life and endeavors of the renowned educator Nailekhanim Isayeva.

The "Life and Education" and "Family" chapters of the book delve into Nailekhanim Isayeva's familial roots, her birthplace, upbringing, and personal family, providing an introduction to various family members. The "Enlightenment-constructive activity" chapter extensively explores the collaborative efforts and challenges in establishing and managing Khazar University, followed by the "Dunya" schools in Baku, Sumgait, and Ganja. This includes Nailekhanim Isayeva's noteworthy leadership in the "Dunya" school complex, working alongside her husband, Acad. Prof. Hamlet Isakhanli.

The "Musical Activities" chapter of the book explores the compositions of Nailekhanim Isayeva and the renowned artists who performed them. The "Personality" chapter unveils the profound spiritual aspects of Nailekhanim Isayeva, concluding with insights from both local and international colleagues and well-known artists expressing their opinions about her.

Throughout the book, numerous photographs accompany each chapter.




# XALQ ŞAİRİ NİGAR RƏFİBƏYLİNİN 110 İLLİYİNƏ HƏSR OLUNAN ƏDƏBİ-BƏDİİ TƏDBİR

# LITERARY AND ARTISTIC CELEBRATION COMMEMORATING THE 110TH ANNIVERSARY OF PEOPLE'S POET NIGAR RAFIBEYLI





*Hamlet İsaxanlı*

Dekabrın 15-də Xəzər Universiteti "Dünya məktəbi"nin "İnciçiçəyi" Konfrans-Konsert Salonunda Xalq şairi Nigar Rəfibəylinin 110 illiyinə həsr olunan ədəbi-bədii tədbir keçirildi.

Tədbirdə ölkənin ədəbiyyat və incəsənət xadimləri iştirak və çıxış ediblər.

Tədbiri gənc müğənni Fuad Dadaşov Nigar Rəfibəylinin sözlərinə bəstələnmiş "Ala gözlüm" mahnısı ilə açdı. Sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı salonda toplanan tələbə və müəllimləri, Nigar Rəfibəylinin ailə üzvlərini, yazıçı və şairləri, elm

On December 15, Khazar University's "Dunya" School hosted a literary and artistic event dedicated to the 110th anniversary of People's Poet Nigar Rafibeyli at the "Incichichayi" Conference-Concert Hall.

The event was attended by the literary and artistic figures of the country.

The opening performance featured young singer Fuad Dadashov, presenting the song "Ala gözlüm" composed with Nigar Rafibeyli's lyrics. Following this, Prof. Acad. Hamlet, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, greeted the audience, including students, teachers, Nigar Rafibeyli's



*Anar* *"Dünya" məktəbinin İctimaiyyətlə əlaqələr və media şöbəsinin koordinatoru, tədbirin moderatorlarından biri Afaq Qəmbərova*

adamlarını, mətbuat nümayəndələrini salamladı, Nigar Rəfibəylinin yaradıcılığından bəhs etdi. Hamlet İsaxanlı xüsusi vurğuladı ki, həyat yoldaşı, mərhum Nailəxanım İsayevanın ən böyük arzusu tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar haqqında portret kitablar buraxmaq idi. Nailəxanımın arzusu reallaşdırılaraq, artıq 10 kitab işıq üzü görüb. Onuncu kitab Nigar Rəfibəyliyə həsr edilib.

"Dünya məktəbi"nin Marketinq Departamenti tərəfindən nəfis şəkildə, zövqlə hazırlanmış kitab xüsusi çantalarda qonaqlara hədiyyə olundu.

Tədbirdə Xalq yazıçısı Anar çıxış etdi. Çıxışında, həmçinin, Hamlet İsaxanlının görkəmli

*(Ardı səh.10-da)*



*Günel Anarqızı*

family, writers, poets, scientists, and members of the press. He reflected on Nigar Rafibeyli's contributions, mentioning the fulfillment of his late wife Nailekhanim Isayeva's dream



*Fuad Dadaşov*

of publishing portrait books about influential women in Azerbaijani history and culture. The tenth book is dedicated to Nigar Rafibeyli.

The book, elegantly prepared by the Marketing Department of "Dunya" School, was presented to the guests in special bags.

People's Poet Anar delivered a speech at the event. In his speech, he also emphasized that

*(To be continued page 10)*



*Qəzənfər Paşayev*

maarifçilər Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev kimi şəxsiyyətlərin gördüyü misilsiz işləri uğurla davam etdirdiyini xüsusi vurğuladı. Nigar Rəfibəylinin qızı Fidan və nəvəsi Günel kövrək xatirələrini dilə gətirdilər.

Tədbirdə Əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev çıxış edərək, Nigar Rəfibəylinin həyat və yaradıcılığından geniş söz açdı.

Tədbirdən sonra qonaqlar Nailəxanım muzeyində görkəmli pedaqoqun həyat və fəaliyyətinə aid eksponatlarla tanış oldular.

Əməkdar elm xadimi, Prof. Qəzənfər Paşayev "525-ci qəzet"in 22 dekabr 2023-cü il tarixli sayında tədbir haqqında və Xalq şairi Nigar Rəfibəylinin yaradıcılığına aid geniş məqalə çap etdirmiş, məqalə qəzetin saytında yerləşdirilmişdir:

Hamlet Isakhanli successfully continued the remarkable work initiated by prominent educators such as Firidun bey Kocherli and Rashid bey Efendiyev. Nigar Rafibeyli's daughter Fidan and granddaughter Gunel shared poignant memories. Honored Scientist Prof. Gazanfar Pashayev provided insights into Nigar Rafibeyli's life and work.

Following the event, guests explored exhibits related to the life and endeavors of the distinguished educator at the Nailekhanim Museum.

Honored Scientist Prof. Gazanfar Pashayev later published a comprehensive article about the celebration and the work of People's Poet Nigar Rafibeyli in the December 22, 2023, issue of the "525th newspaper", available on the newspaper's website.



*Aktyor, bədii qiraət ustası Kamran Yunis*

***https://525.az/news/246821-bulaq-suyu-kimi-saf-ayna-kimi-lekesiz-qezenfer-pasayev-yazir***



*Müğənnilər: Kamilə Nəbiyeva, Mirələm Mirələmov*



*Əməkdar artist Fərqanə Qasımova*



*"Dünya" məktəbinin rəsm müəllimi Aybəniz Şahvələdova çəkdiyi rəsmi Anara təqdim edir*



*Müğənni Nuriyyə Hüseynova*



*Xalq artisti Vamiq Məmmədəliyev*



*"Dünya" məktəbinin rəhbərliyi: Mərufə Mədətli, Aygün Gardiner*



*Tədbir iştirakçıları Nailəxanım muzeyində*




*Qızıl medal qazanmış CodeCrypts komandası: Rəqsanə Şəkərova, mentor Fariz Həsənli, Şərqiyyə Rəhimli, Fərid Əliyev*

# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ BEYNƏLXALQ STEAM AZƏRBAYCAN FESTİVALININ QALİBLƏRİDİR

# KHAZAR UNIVERSITY TRIUMPHS AT INTERNATIONAL STEAM AZERBAIJAN FESTIVAL

Dekabrın 4-8-də Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində SAF 2023-Beynəlxalq STEAM Azərbaycan Festivalı keçirilib.

SAF 2023 ümumilikdə 14 yarış və 1 sərgi kateqoriyası üzrə təşkil edilmişdi. Festivalın final mərhələsində 11 ölkəni təmsil edən 868 yerli, 159 xarici iştirakçı yarışıb. Əcnəbi iştirakçılar Türkiyə, Niderland, Çexiya, Bolqarıstan, Böyük Britaniya, Qazaxıstan, Norveç, Slovakiya, Türkmənistan və Özbəkistanı təmsil edirdilər.

Beynəlxalq SAF 2023-də 27 komanda I, 73 komanda II, 67 komanda isə III yerə layiq görülüb. Xüsusi nominasiyalar üzrə isə 101 komanda qalib olub.

Hackathon Universitet kateqoriyasına 100+ komandadan 16 yerli, 3 xarici komanda final mərhələsində iştirak haqqı qazanmışdır. Bu komandalardan Xəzər Universitetini təmsil edən 3 komandaya universitetin müəllimi Fariz Həsənli mentorluq etmişdir.

Komandalar kompüter və mobil oyunların təhsilə inteqrasiyası haqqında 48 saat ərzində startup proqramları hazırlayıblar.

"Xəzər"in tələbələri Fərid Əliyev, Rəqsanə Şəkərova, Şərqiyyə Rəhimli (CodeCrypts komandası) qızıl medala, Leyla Abışlı, Lalə Məhərrəmova, Zeynal Mərdanlı (Reapers komandası) gümüş medala, Güllər Fərzəli, Mahir Cahangirov (BlackJack komandası) isə bürünc medala layiq görülüblər. Qızıl medalımız iki qızıldan daha yüksək ballı (first of first) olub.

From December 4 to 8, the SAF 2023-International STEAM Azerbaijan Festival took place at the Baku Expo Center, supported by the Ministry of Science and Education. SAF 2023 featured a total of 14 competitions and 1 exhibition category, attracting 868 local and 159 foreign participants from 11 countries in the final stage of the festival. Foreign participants hailed from Türkiye, Netherlands, Czech Republic, Bulgaria, Great Britain, Kazakhstan, Norway, Slovakia, Turkmenistan, and Uzbekistan.

In the global SAF 2023, 27 teams secured first place, 73 teams clinched second place, and 67 teams earned third place. Special nominations were awarded to 101 teams. Out of 100+ teams in the Hackathon University category, 16 local and 3 foreign teams advanced to the final stage. Three teams representing Khazar University were mentored by university faculty member Fariz Hasanli.

These teams dedicated 48 hours to developing startup programs focused on integrating computer and mobile games into education. Khazar University students Farid Aliyev, Raksana Shekarova, and Sharkiyya Rahimli (CodeCrypts team) received gold medals, while Leyla Abishli, Lala Maharramova, and Zeynal Mardanli (Reapers team) secured silver medals. Guller Farzali and Mahir Jahangirov (BlackJack team) were awarded bronze medals. Notably, the gold medal from Khazar University achieved a higher score than two other gold medals, standing out as the top performer ( first of first).




*Hüseyn Musayev*



*Abdulla Nuriyev*

## TƏLƏBƏ MƏCLİSİNƏ SEÇKİLƏR KEÇİRİLİB

## STUDENT ASSEMBLY ELECTIONS CONDUCTED

Dekabrın 18-də Xəzər Universitetinin Mərmər salonunda Tələbə Məclisinə (TM) prezident, vitse-prezident və senat üzvlüyünə namizədlərin seçkisi keçirilib. Seçki prosesində tələbələrlə yanaşı, universitetin rektoru, fakültə dekanları və müavinləri, Keyfiyyət təminatı mərkəzinin direktoru və əməkdaşları, İctimai əlaqələr və media üzrə direktor iştirak ediblər.

Tələbə Məclisinin prezidenti və vitse-prezidentliyinə seçki universitetin 5 fakültəsi üzrə müxtəlif ixtisaslarda təhsil alan əcnəbi və yerli tələbələrdən olan 12 namizəd arasında aparılıb. Qeyd edək ki, bütün fakültələr ayrı-ayrılıqda konfranslar keçirərək, bu tələbələrin namizədliyini irəli sürüblər.

Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva çıxış edərək, seçki prosesi haqqında iştirakçıları məlumatlandırıb və Tələbə Məclisinin bu günə qədərki fəaliyyətindən danışıb.

Prezidentliyə namizəd olan 12 tələbənin platforma təqdimatları dinlənilib, sonra isə fakültələrin müxtəlif ixtisaslarını təmsil edən 54 tələbənin gizli səsverməsi əsasında seçim prosesi təşkil olunub və Hesablama Komitəsi tərəfindən səslər hesablanaraq, qalib elan edilib. Təbiət elmləri və mühəndislik fakültəsinin Mexanika mühəndisliyi ixtisasının II kurs tələbəsi, Heydər Əliyev adına təqaüdçü Hüseyn Musayev Tələbə Məclisinin prezidenti, İqtisadiyyat və menecment fakültəsinin İqtisadiyyat ixtisasının II kurs tələbəsi Abdulla Nuriyev vitse-prezident, tələbələr arasında Senata seçim prosesində isə 11 nəfər Senata üzv seçilib.

Seçki prosesi başa çatandan sonra universitetin rektoru İradə Xəlilova, eləcə də İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli çıxış edərək, Tələbə Məclsinin üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

On December 18, 2023, Khazar University hosted elections for the positions of president, vice-president, and senate membership of the Student Assembly (SA) in the Marble Hall. In addition to students, the university's rector, faculty deans and deputies, the director and employees of the Quality Assurance Center, and the director of Public Relations and Media participated in the election process.

Candidates for the president and vice-president positions, comprising 12 individuals from both local and foreign students across various faculties, participated in the elections. Each faculty nominated these candidates through separate conferences.

Fakhranda Efendiyeva, the dean of the School of Science and Engineering, addressed the participants, providing information about the election process and highlighting the past activities of the Student Assembly.

Platform presentations from the 12 candidates were followed by a secret voting process involving 54 students from different faculties. The counting commission tallied the votes, resulting in Huseyn Musayev, a second-year Mechanical Engineering student, securing 12 votes and becoming the President of the Student Assembly. Abdulla Nuriyev, a second-year Economics major, received 11 votes and was elected vice-president. Additionally, 11 students were elected as members of the Senate.

Following the elections, the university's rector, Irada Khalilova, and the director of Public Relations and Media, Alovsat Amirbeyli, expressed their wishes for success to the newly elected members of the Student Assembly in their future endeavors.

## BEYNƏLXALQ TƏHSİL İMKANLARI FORUMUNDA XƏZƏR UNİVERSİTETİNİN FƏALİYYƏTİ "TƏŞƏKKÜRNAMƏ" İLƏ MÜKAFATLANDIRILIB

Dekabrın 26-da Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Four Seasons hotelində Azərbaycanda Beynəlxalq Təhsil İmkanları Forumu keçirilib. Forumda Elm və Təhsil nazirinin müavini Həsən Həsənli, yerli ali təhsil müəssisələrinin rektorları, təhsil işçiləri, beynəlxalq ekspertlər və əcnəbi tələbələr iştirak ediblər. Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Turan Əlizadə ilə təmsil olunub.

Forumun keçirilməsində məqsəd hər ilin yekununda yerli ali təhsil müəssisələri ilə keçirilən ənənəvi görüşün daha produktiv modelinə keçid, 2023-2024-cü tədris ili üzrə əcnəbi tələbələrin Azərbaycanda təhsilinə dair hesabatın təqdim olunması, universitetlərin beynəlmiləlləşmə sahəsində inkişafını müzakirə etmək, eləcə də 2023-cü il üçün Fəaliyyət Planı üzrə xarici tələbələrlə iş sahəsində fərqlənən universitetləri fərqləndirmək olub.

Qeyd edək ki, Xəzər Universiteti Azərbaycanda əcnəbi tələbələrin mobilliyi baxımından yüksək göstəricilərinə və ölkənin ali təhsil müəssisələrinin reytinqində yüksək nailiyyətləri ilə fərqləndiyinə görə Elm və Təhsil Nazirliyi tərəfindən təşəkkürnamə ilə mükafatlandırılıb.



AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

TƏŞƏKKÜRNAMƏ

XƏZƏR UNİVERSİTETİ

Azərbaycan Respublikasında təhsil alan əcnəbilərin mobilliyi indikatoru üzrə ölkənin ali təhsil müəssisələrinin reytinqində nailiyyətləri ilə fərqləndiyinə görə

TƏLTİF EDİLİR

NAZİR EMİN ƏMRULLAYEV №

## KHAZAR UNIVERSITY'S ACTIVITY RECOGNIZED WITH "CERTIFICATE OF APPRECIATION" AT THE INTERNATIONAL EDUCATION OPPORTUNITIES FORUM

On December 26, the International Education Opportunities Forum in Azerbaijan was held at the Four Seasons Hotel under the organization of the Ministry of Science and Education. Rectors of local higher education institutions, educators, international experts and international students, Deputy Minister of Science and Education Hasan Hasanli, Director of the State Agency for Science and Higher Education Ulker Sattarova, Head of the International Development Agency of the Ministry of Foreign Affairs Elmaddin Mehdiyev, Deputy Chief of the Migration Processes Head Department of the State Migration Service Tamilla Hajiyeva, Head of Khazar University's International Relations Department Fatima Valiyeva, coordinators Turan Alizade and Arzu Badalova attended the forum.

The forum aimed to transition to a more productive model of the traditional year-end meeting with local higher education institutions. It included presenting a report on the education of foreign students in Azerbaijan for the 2023-2024 academic year, discussing university development in internationalization, and recognizing outstanding universities in working with foreign students based on the 2023 action plan.

Note that,Khazar University was honored with a "Certificate of Appreciation" from the Ministry of Science and Education, acknowledging its exceptional performance in terms of foreign student mobility in Azerbaijan and its high achievements in the country's higher education institution rankings.

# "TEXAS A&M" UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

# SEMINAR OF A DOCTORAL STUDENT OF "TEXAS A&M" UNIVERSITY OF THE UNITED STATES OF AMERICA

Noyabrın 10-da Xəzər Universitetində Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin və Neft mühəndisliyi departamentinin təşkilatçılığı ilə məruzəçi Turqut Əhmədovun online şəkildə "Improved Methods for Upscaling of Fluid Flow" ("Maye axınının apskelinqi üçün təkmilləşdirilmiş metodlar") adlı seminarı keçirilib. Seminarda "Neft mühəndisliyi" ixtisası üzrə bakalavr pilləsinin, "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə magistr pilləsinin tələbələri və universitetin əməkdaşları iştirak ediblər.

Məlumat üçün bildirək ki, məruzəçi Turqut Əhmədov "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Amerika Birləşmiş Ştatlarının "Texas A&M" Universitetində doktorantura təhsili alır.

On November 10, an online seminar titled "Advanced Approaches to Upscaling Fluid Flow" was conducted by Turgut Ahmadov, organized by the Graduate School of Science, Art, and Technology in collaboration with the Department of Petroleum Engineering at Khazar University. Participants included students from the bachelor's program in "Petroleum Engineering," those pursuing a master's degree in "Development and Exploitation of Oil and Gas Fields," as well as university staff.

Notably, Turgut Ahmadov, the speaker, is pursuing a doctoral degree at Texas A&M University in the United States under a tripartite agreement involving the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University, as part of the program "Doctoral study abroad on increasing the international competitiveness of the higher education system in the Republic of Azerbaijan for 2019-2023".

# ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN "TƏMİZ ŞƏHƏR" SƏNAYE SAHƏLƏRİNƏ MƏLUMAT TURU

# INFORMATION TOUR TO "CLEAN CITY" INDUSTRIES FOR INTERNATIONAL STUDENTS

CLEAN CITY

Noyabrın 14-də əcnəbi tələbələrin ictimai fəallığını təmin etmək, eyni zamanda, onların ətraf

*(Ardı səh.16-da)*

On November 14, the Ministry of Science and Education of the Republic of Azerbaijan

*(To be continued page 16)*



mühitin mühafizəsi istiqamətində ölkə miqyasında həyata keçirilən tədbirlərlə yaxından tanış olması məqsədilə 20-dən çox tələbə üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən "Təmiz Şəhər" sənaye sahələrinə məlumat turu təşkil olunub. Turda Azərbaycanda təhsil alan 10-dan çox ali təhsil müəssisəsindən əcnəbi tələbələr iştirak ediblər.Onların arasında Xəzər Universitetində təhsil alan iki əcnəbi tələbəmiz - Aldila Qonita Putri Aulia və Abdou Elfatah Djoumoi Moiboi də olub.

Məlumat turu çərçivəsində "Təmiz Şəhər"in işçiləri tələbələrə "Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavodu"nda tullantıların çeşidlənməsi və təkrar emal müəssisələrinə göndərilməsi, bərk məişət tullantılarının təkrar emalı və yandırılması prosesi haqqında məlumat veriblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

organized an information tour to the "Clean City" industries for more than 20 students. The aim was to enhance the social engagement of foreign students and acquaint them with nationwide initiatives in environmental protection. Participants included foreign students from more than 10 higher education institutions in Azerbaijan, including two from Khazar University - Aldila Gonita Putri Aulia and Abdou Elfatah Djoumoi Moiboi.

During the tour, the "Clean City" staff briefed the students on waste sorting processes, recycling procedures, and the incineration of solid household waste at the "Balakhani Solid Household Waste Sorting Plant."

In the end, the students' questions were answered.



*Orxan Vəliyev*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXVI RESPUBLİKA ELMİ KONFRANSINDA

# POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD AT XXVI REPUBLICAN SCIENTIFIC CONFERENCE FOR DOCTORAL STUDENTS AND YOUNG RESEARCHERS

Noyabrın 17-18-də Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən Bakı Dövlət Universitetində təşkil edilən və Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunan "Doktorantların və gənc tədqiqatçıların XXVI Respublika elmi konfransında Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev də iştirak və çıxış edib.

Konfransı Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev açıq elan edib, sonra isə Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli və Azərbaycan Təhsil İnstitutunun direktor səlahiyyətlərini icra edən Elnur Əliyev nitq söyləyiblər. Elnur Əliyev çıxışında konfransa qəbul edilən məqalələr haqqında məlumat vermişdir.

Açılışdan sonra konfrans öz işinə bölmələrdə məqalələrin təqdimatı ilə davam edib. Konfrans bağlanış tədbiri və hesabat iclası ilə öz işinə yekun vurmuşdur.

On November 17-18, Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy of Khazar University, participated and delivered a speech in the "XXVI Republican Scientific Conference for Doctoral Students and Young Researchers" organized by the Education Institute of the Republic of Azerbaijan at Baku State University and dedicated to the 100th anniversary of the national leader Heydar Aliyev.

The Rector of Baku State University, Elchin Babayev, announced the conference, and then the Minister of Science and Education of the Republic of Azerbaijan, Emin Amrullayev, the President of the Azerbaijan National Academy of Sciences, Academician Isa Habibbeyli, and the Acting Director of the Azerbaijan Education Institute, Elmur Aliyev, delivered speeches. In his speech, Elmur Aliyev provided details about the articles accepted for the conference in his speech.

Following the opening, the conference proceeded with the presentation of articles in various sections, concluding with a closing event and a report session.

## İSTANBUL UNİVERSİTETİNDƏ TƏHSİL ALAN DOKTORANTIN SEMİNARI

Noyabrın 22-də Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin və Hüquq departamentinin təşkilatçılığı ilə Xəzər Universitetində keçirilən seminarda Səma Əsədovanın onlayn şəkildə "Azərbaycan və Türkiyə yerli özünü idarəetmə orqanlarının quruluş və funksiyalarının təhlili və müqayisəsi" adlı məruzəsi dinlənilib. Seminarda universitetin və digər ali təhsil müəssisələrinin əməkdaşları və tələbələri iştirak edliblər.

Qeyd edək ki, məruzəçi Səma Əsədova "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili" proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Türkiyə Respublikasının "İstanbul Universitetində " doktorantura təhsili alır.

## SEMINAR BY DOCTORAL STUDENT OF ISTANBUL UNIVERSITY

On November 22, Sema Asadova's online lecture on "Analysis and Comparison of the Structure and Functions of Local Self-Government Bodies of Azerbaijan and Türkiye" was heard at a seminar held at Khazar University organized by the Graduate School of Science, Art and Technology in collaboration with the Department of Law. The seminar was attended by employees and students of the University and other higher educational institutions.

It's noteworthy that the speaker, Sema Asadova, is pursuing a doctoral degree at Istanbul University, Türkiye, on the basis of a tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the framework of the program "Doctoral study abroad on increasing the international competitiveness of the higher education system in the Republic of Azerbaijan for 2019-2023".

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMETİNİN MÜDİRİ QIRĞIZISTANDA KEÇİRİLƏN "IV ULUSLARARASI TÜRK SİVİLİZASİYASI" KONFRANSINDA

Noyabrın 23-25-də Bişkekdə dünyanın müxtəlif universitetlərindən yüzdən çox elm adamının iştirak etdiyi "IV Uluslararası Türk Sivilizasiyası" konfransına Xəzər Universitetinin Tarix və arxeologiya departametinin müdiri Telman Nüsrətoğlu da qatılıb.

Konfransın açılış panelində departament müdiri Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının türk dünyasının dərinləşən inteqrasiyasına təsiri ilə bağlı geniş məruzə ilə çıxış edib.




*Telman Nüsrətoğlu, Manas Universitetinin rektoru professor, Alparslan Ceylan*

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD AT THE "IV INTERNATIONAL TURKIC CIVILIZATION" CONFERENCE IN KYRGYZSTAN

On November 23-25, Telman Nüsratoğlu, the head of the Department of History and Archeology of Khazar University, participated in the "IV International Turkic Civilization" conference, which brought together over a hundred scholars from diverse global universities around the world, in Bishkek.

During the opening panel, the department head delivered an extensive presentation on the influence of Turkish-Azerbaijani military collaboration and its role in fostering deeper integration within the Turkic world.

# XƏZƏR UNİVERSİTETİNİN REQBİ KOMANDASI DİPLOMA LAYİQ GÖRÜLÜB

# KHAZAR UNIVERSITY RUGBY TEAM RECEIVES DIPLOMA

Noyabrın 27-də Şamaxı Olimpiya Mərkəzində reqbi üzrə ilk dəfə sınaq yarışları (test-matç) keçirilmişdir. Xəzər Universitetinin reqbi komandası yarışda iştirak etmiş və keçirdiyi hər iki oyunu qələbə ilə başa vurmuşdur. Komanda Təşkilat komitəsi tərəfindən "sərgilədiyi yüksək texniki və fiziki göstəricilərə görə" diploma layiq görülmüşdür.

Qeyd edək ki, Xəzər Universitetinin reqbi komandası Azərbaycan universitetləri arasında yaradılmış ilk komandadır.

On November 27, the first rugby test-match was held at the Shamakhi Olympic Center. Khazar University's rugby team emerged victorious in both games. The team was awarded a diploma by the organizing committee "for the exceptional technical and physical prowess ".

Notably, Khazar University's rugby team holds the distinction of being the first among Azerbaijani universities.



# XƏZƏR UNİVERSİTETİNDƏ SOMATİK HÜCEYRƏ NÜVƏSİ TRANSFERİ ÜZRƏ 1-Cİ BİRGƏ ELMİ SEMİNAR





*Hamlet İsaxanlı*

# KHAZAR UNIVERSITY HOSTED 1ST JOINT SCIENTIFIC SEMINAR ON SOMATIC CELL NUCLEAR TRANSFER

Reproduktiv biotibb və kök hüceyrə tədqiqatları ilə dünyada tanınan, İranın qabaqcıl tədqiqat mərkəzi olan Royan İnstitutunun alimləri noyabrın 28-dən 29-dək Xəzər Universitetində olub, noyabrın 28-də maraqlı seminar proqramı ilə çıxış etmişlər. Somatik hüceyrə nüvə transferinə (SCNT) həsr olunmuş seminar Xəzər Universitetinin Həyat elmləri departamentinin akademik heyəti tərəfindən təşkil olunmuşdur.

Tədbirin açılışı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlının səmimi salamlama nitqi ilə başladı. Sonra universitetin rektoru, Dos. İradə Xəlilova çıxış edərək, akademik əməkdaşlıqdan məmnunluğunu ifadə etdi.

Seminar SCNT-nin müxtəlif aspektlərini əhatə edən Royan İnstitutundan dəvət olunmuş alimlərin məruzələri ilə davam etdi.

Əvvəlcə Prof. Dr. Mohammad Hossein Nasr Esfahani tərəfindən "Klonlaşdırma, keçmişi-bugünü-gələcəyi" adlı maraqlı təqdimat edildi və bu məruzə vasitəsilə klonlaşdırma texnologiyasının tarixi və gələcək imkanları hərtərəfli nəzərdən keçirildi.

Royan İnstitutunun tədqiqatçısı Dr. Mehdi Hajian "SCNT-nin Texniki Aspektləri" ilə bağlı çıxış edərək, seminar iştirakçılarına Somatik Hüceyrə Nüvəsi Transferinin metodiki tərəflərini ətraflı izah etdi. Royan İnstitutundan Dr.Farnoosh Jafarpour "Klonlaşdırmanın Epigenetik tarixi" adlı təqdimatı ilə auditoriyanın böyük marağına səbəb oldu. Dr.

Royan Institute researchers, a prominent Iranian research center known for reproductive biomedicine and stem cell research visited Khazar University from November 27 to 29 and on 28 November held an intriguing lecture at Khazar University.

The 1st Joint Seminar on Somatic Cell Nuclear Transfer (SCNT) has been organized by the academic staff of Khazar University's Life Sciences department.

The seminar focused on Somatic Cell Nuclear Transfer (SCNT), with active participation from Khazar University academics and students.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, began the opening event with a sincere welcoming address. The Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova, also addressed the audience, expressing her delight in the collaborative academic endeavor.

The seminar continued with Royan Institute speakers who shed light on different aspects of SCNT.

First, Prof. Dr. Mohammad Hossein Nasr Esfahani presented an engaging talk titled "Cloning, Past-Present-Future," which provided a thorough review of the history and future possibilities of cloning technology.

Dr. Mehdi Hajian, an esteemed Royan Institute researcher, provided significant insights into the "Technical Aspects of SCNT." Attendees were introduced to a deep analysis of the scientific and

Jafarpour öz təqdimatı ilə SCNT-nin epigenetik təsirlərinə nəzər salaraq, mürəkkəb bioloji proseslər haqqında məlumat verdi.

Seminarda Xəzər Universitetinin professor-müəllim heyəti və tələbələrin fəal iştirakı ilə mövzu ətrafında geniş müzakirələr aparıldı.

Seminar hər iki qurum arasında məlumat və fikir mübadiləsinə, həmçinin gələcək potensial əməkdaşlığa zəmin yaratdı.



*Mohammad Hossein Nasr Esfahani*



*Mehdi Hajian*

technological aspects that drive Somatic Cell Nuclear Transfer, improving their understanding of this cutting-edge topic.

Dr. Farnoosh Jafarpour of the Royan Institute then impressed the audience with his presentation, Revealing the Epigenetic Stories of Cloning. Dr. Jafarpour's presentation provided an in-depth look at the epigenetic implications of SCNT, putting light on the complex biological processes.

Khazar University's Life Sciences department was essential in coordinating this joint academic meeting, assuring the active participation of both academic staff and students.

The Royan Institute and Khazar University 1st Joint Seminar on Somatic Cell Nuclear Transfer not only marked an important event in academic partnership but also set the foundation for future developments and collaborative endeavors. The exchange of information and ideas between these highly esteemed institutions can define future potential collaboration.



*Farnoosh Jafarpour*



# “MÜHARİBƏ KÖLGƏSİNDƏ RUSİYA VƏ UKRAYNADA MİLLƏTÇİLİK” MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "NATIONALISM IN RUSSIA AND UKRAINE IN THE SHADOW OF WAR"

Noyabrın 29-da Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departmamentinin təşkilatçılığı ilə Koç Universitetinin müəllimi Dr. Yuri Katliarou`nun "Müharibə kölgəsində Rusiya və Ukraynada millətçilik" adlı onlayn seminarı keçirilmişdir.

Seminarda Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimləri və tələbələr iştirak etmişdir.

On November 29, an online seminar entitled "Nationalism in Russia and Ukraine in the Shadow of War" by Dr. Yuri Katliarou, a faculty member of Koch University, was organized by the Department of Political Sciences and Philosophy of Khazar University.

Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy, along with faculty and students, participated in the seminar.



Seminarı Dr. Orxan Vəliyev açaraq, mühazirəçini auditoriyaya təqdim etmişdir. Dr. Yuri Katliarou millət, millətçilik, milli dövlət və milli kimlik anlayışına xüsusi toxunmuşdur. Həmçinin, Rusiya- Ukrayna arasındakı mövcud qaynar vəziyyəti təhlil etmişdir. Sonda tələbələrin sualları cavablandırılmışdır.

Dr. Valiyev commenced the event and introduced the lecturer. Dr. Katliarou focused on concepts like nation, nationalism, national state, and national identity. The lecturer also delved into the current tensions between Russia and Ukraine.

The seminar concluded with Dr. Katliarou addressing questions from students.



# "SMART SOLUTIONS" İNKUBASİYA PROQRAMININ TƏLİMLƏRİNƏ START VERİLDİ

# LAUNCH OF "SMART SOLUTIONS" INCUBATION PROGRAM TRAINING

Noyabrın 29-da Xəzər Universitetində digər universitetlərin də tələbələrinin iştirakı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən maliyyələşdirilən "Smart Solutions" inkubasiya proqramının ilk təlimi keçirildi. Bu innovasiya proqramı Xəzər Universitetində Creative Spark layihəsi çərçivəsində yaradılan Enterprise Hub platforması daxilində təşkil edilir.

"Smart Solutions" inkubasiya proqramı altı ay müddətində davam edəcəkdir. Tələbələr proqram müddətində komanda şəklində 10 günlük təlim düşərgəsində iştirak edəcəklər. Təlim düşərgəsindən sonra komandalar onlayn və üz-üzə olaraq mentorlar ilə birlikdə layihələrinin üzərində işləyəcəklər. Proqramın sonunda komandalar final tədbirində öz layihələrini təqdim edəcəklər. Sonda ən yaxşı üç komandaya mükafat və gələcək bizneslərinin inkişafı üçün dəstək veriləcəkdir.

On November 29, the inaugural session of the "Smart Solutions" incubation program, backed by the Innovation and Digital Development Agency under the Ministry of Digital Development and Transport, commenced at Khazar University, welcoming students from various universities. This forward-looking initiative unfolds within the Enterprise Hub platform established through the Creative Spark project at Khazar University.

The "Smart Solutions" incubation program extends over six months, involving a 10-day team-oriented boot camp for participating students. Following the boot camp, teams will collaborate with mentors both online and in person to develop their projects. The program will culminate with a final event where teams showcase their projects. The top three teams will receive awards and support for the future development of their ventures.









*Agueda Benito*

# CINTANA EDUCATION-DAN DƏVƏT OLUNMUŞ QONAQ MÜHAZİRƏÇİNİN SEMİNARLARI

# SEMINARS OF A GUEST LECTURER FROM CINTANA EDUCATION

Noyabrın 28-29-da Cintana Education-ın Akademik işlər üzrə baş işçisi Dr. Agueda Benito Xəzər Universitetində ikigünlük səfərdə olmuşdur.

Səfərin ilk günündə Dr. Benito universitet əməkdaşları üçün "Positive leadership" adlı seminar keçirdi. Ardınca xanım Aguedanın iştirakı ilə universitet tələbələri üçün "Global leadership" adlı panel baş tutdu. Panel fərqli ixtisaslarda təhsil alan tələbələrlə diskussiya formatında keçdi. Panel tələbələrin sual-cavab sessiyası ilə başa çatdı.

Təlimin ikinci günündə Dr. Agueda Benito Xəzər Universitetinin akademik heyəti ilə görüşmüş, tədqiqat, beynəlxalq əlaqələrin gücləndirilməsi, tədrisin keyfiyyətinin artırılması, potensial yeni ixtisaslar və s. kimi mövzularda təlim iştirakçıları ilə interaktiv diskussiya aparmışdır.

İkigünlük tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, fakültə dekanları, departament müdirləri, professor-müəllim heyəti, tələbələr iştirak etmişlər.

Chief Academic Affairs Officer of Cintana Education, Dr. Agueda Benito, visited Khazar University on November 28-29, conducting a series of seminars over the two days.

On the first day, Dr. Benito delivered a seminar titled "Positive Leadership" for university staff, followed by a panel on "Global Leadership" involving university students. The panel took the form of interactive discussions with students from various disciplines, concluding with a Q&A session.

During the second day, Dr. Agueda Benito engaged in an interactive discussion with Khazar University's academic staff. The topics covered included research, enhancing international relations, improving teaching quality, and potential new specialties.

The two-day event saw the participation of the Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanli, Rector Assoc. Prof. Irada Khalilova, Vice-Rector for Academic Affairs Mahammad Nuriyev, faculty deans, department heads, teaching staff, and students.

## BEYNƏLXALQ MÜASİR İNCƏSƏNƏT LAYİHƏSİ: " QIZ QALASI. QADIN OLMAQ" ADLI TƏQDİMAT

## KHAZAR UNIVERSITY HOSTS PRESENTATION OF INTERNATIONAL CONTEMPORARY ART PROJECT: 'MAIDEN'S TOWER. BEING A WOMAN'


Vija Buşa

Noyabrın 30-da Xəzər Universitetində Latviya Respublikasının Azərbaycandakı səfirliyi, BMT-nin Azərbaycandakı Nümayəndəliyi və İsveçrənin Azərbaycandakı səfirliyi ilə birgə əməkdaşlıqla Beynəlxalq Müasir İncəsənət Layihəsi "Qız Qalası. Qadın olmaq" adlı təqdimat göstərilmişdir. Bu layihədə Xəzər Universiteti aparıcı tərəfdaşlardan biridir.

Tədbirdə Latviyanın Azərbaycandakı səfirliyinin missiya rəhbərinin müavini Vija Buşa, peşəkar rəssam və kurator Səbinə Şıxlinskaya, müstəqil tədqiqatçı Əfsanə Tahirova, Xəzər Universitetinin rektoru İradə Xəlilova, Memarlıq və dizayn departamentinin müdiri Şəhla Abbasova, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Aygün Verdiyeva, Memarlıq və dizayn departamentinin müəllimi Mehdi Samadi, Beynəlxalq əlaqələr üzrə koordiantorları Turan Əlizadə və Arzu Bədəlova iştirak etmişlər.

Təqdimatın əsas məqsədi "Qadınlar sülh uğrunda" devizi idi. Layihənin mövzusu qadınların həyatı, onların cəmiyyətdəki rolu və problemlərinə həsr olunmuşdu. Layihənin hər bir elementi incəsənət və mədəniyyət vasitəsilə sosial inteqrasiyanın təşviqi və gücləndirilməsinin yeni strategiyasında mühüm rol oynamışdır. Təqdimatın adı Bakının simvolu hesab edilən Qız qalasının adından götürülmüşdür.

On November 30, Khazar University, in collaboration with the Embassy of the Republic of Latvia in Azerbaijan, the UN Office in Azerbaijan, and the Swiss Embassy in Azerbaijan, organized a presentation for the International Contemporary Art Project titled "Maiden's Tower. Being a Woman." Khazar University holds a prominent role as one of the key partners in this initiative.

Rector of Khazar University Irada Khalilova, Deputy Head of Mission of the Embassy of Latvia in Azerbaijan Vija Busha, professional artist Sabina Shikhlinskaya, independent researcher Afsana Tahirova, Dean of the School of Humanities, Education and Social Sciences Nurlan Nasirov, Lecturer of Architecture and Design Department Mehdi Samedi, Head of International Relations Department Fatima Valiyeva, coordinator for International Relations Turan Alizade, students and others attended the event.

The central theme of the presentation was "Women for Peace", focusing on women's lives, their societal roles, and associated challenges. The project aimed to contribute to social integration through art and culture, with each aspect reflecting a vital role in this new strategy. The project's name derives from the Maiden Tower, symbolizing Baku.



# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ "BİR GƏLƏCƏK" LAYİHƏSİNDƏ

# HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY DR. ORKHAN VALIYEV, IN "ONE FUTURE" PROJECT

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev noyabrın 30-da Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən "Bir Gələcək" təşəbbüsü çərçivəsində məzunu olduğu İmadəddin Nəsimi adına Gəncə şəhər 44 nömrəli məktəb-lisey kompleksi orta məktəbində şagirdlərə təlim keçmişdir.

"İctimai fəallığın artırılması ilə dəyişim əməkdaşlığı" layihəsi çərçivəsində keçirilən "Bir Gələcək" təşəbbüsünün məqsədi şagirdləri gələcək ixtisas seçimi və karyera planlaması mövzusunda maarifləndirmək, dövlət və özəl sektorda çalışan, peşəkar həyatda uğur qazanan şəxslərlə şagirdlərin görüşünü təşkil edərək fərdi inkişafa dəstək olmaqdır.

On November 30, Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, is scheduled to meet with students at the No. 44 Imadaddin Nasimi Secondary School-Lyceum Complex in Ganja, which he graduated from, within the framework of the "One Future" initiative organized by the "One Volunteer" Student Cooperation Public Union.

"One Future" initiative, held within the framework of the "Change cooperation with increasing social activity" project, aims to guide students in choosing future specialties, assist in career planning, and foster personal development through meetings with successful professionals from both public and private sectors.

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI BAKI ALİ NEFT MƏKTƏBİNDƏ

Noyabrın 30-da Xəzər Universitetinin Psixologiya departamentinin assistenti və "Xəzər Psixoloji Xidmət Mərkəzi"-nin psixoloqu Mirsadiq Muxtarov tələbə məclisinin dəvəti ilə Bakı Ali Neft Məktəbində "Psixopatologiyaya ümumi baxış" mövzusunda seminar keçirmişdir. Seminarın təşkilində əsas məqsəd tələbələrin psixopatologiya haqqında maariflənməsi, psixi xəstəliklər haqqında düzgün bilgilərə sahib olmaları idi.

Seminarda tələbələrə psixopatologiya anlayışı və onun tarixi inkişafından bəhs edilmişdir. Bununla yanaşı, etiketləmə (stiqma) mövzusuna da toxunularaq, psixi problemli şəxslərə qarşı qərəzli təsəvvürlərin yaranmasına qarşı addımlar barədə müzakirə aparılmışdır. Stiqmaya məruz qalan şəxslərin cəmiyyətdən ayrı olaraq qruplaşdırılmasının fəsadları vurğulanmışdır. Seminarın davamında müasir psixologiyada psixopatologiyanın ümumi təsnifatına da nəzər yetirilmişdir. Tələbələrə həmçinin depressiya və digər emosional pozuntular, eləcə də şəxsiyyət pozuntularından ətraflı bəhs edilmişdir.

Tələbələr aktiv şəkildə müzakirələrə qoşularaq, təlimçiyə mövzu ilə əlaqədar suallar vermişlər.

# PSYCHOLOGY DEPARTMENT REPRESENTATIVE AT BAKU HIGHER OIL SCHOOL

On November 30, Mirsadig Mukhtarov, an assistant in the Psychology Department at Khazar University and a psychologist at the Khazar Psychological Service Center, conducted a seminar entitled "General Overview of Psychopathology" at Baku Higher Oil School, following an invitation from the student council.The primary objective of this seminar was to impart knowledge about psychopathology to students, fostering an accurate understanding of mental illnesses.

The session covered the concept of psychopathology, its historical evolution, and delved into the issue of labeling (stigma). A discussion ensued regarding measures to counteract the formation of biases against individuals with mental health challenges, emphasizing the adverse consequences of segregating stigmatized individuals from society. Continuing the seminar, the general classification of psychopathology in modern psychology was explored. Detailed insights were provided on topics such as depression, other emotional disorders, and personality disorders.

The students actively engaged in discussions and posed questions to the trainer regarding the subject matter.

# MİQRASİYA SİYASƏTİNİN İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ MƏRKƏZLƏ GÖRÜŞ

Noyabrın 30-da Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzlə görüşü baş tutub.

Görüşdə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Beynəlxalq əlaqələr üzrə koordiantorlar -Turan Əlizadə və Arzu Bədəlova, qarşı tərəfdən isə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin eksperti Eşqin Tanrıverdi, Layihələr üzrə məsul şəxs Lamiyə Rzayeva-Əhmədli, Azərbaycanla yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək layihəsinin milli inteqrasiya məsləhətçisi Gülnarə Pənahova iştirak ediblər.

Görüşdə əsas məqsəd Xəzər Universitetinin Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzlə qarşılıqlı fəaliyyətin ilkin formada tanınması və gələcək əməkdaşlıq planlarının müzakirə edilməsi olub.

Qeyd edək ki, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz gələcəkdə həyata keçirəcəkləri və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən MOBILAZE 2 layihəsi çərçivəsində Xəzər Universitetinin əcnəbi tələbə miqrantlarına sosial və hüquqi maarifləndirməni artıqmaq məqsədilə İnteqrasiya proqramı haqqında məlumat sessiyası təşkil edir.




# MEETING WITH INTERNATIONAL CENTER FOR MIGRATION POLICY DEVELOPMENT

On November 30, the International Relations Department of Khazar University met with the International Center for Migration Policy Development.

The meeting was attended by Jeyhun Mammadov, the dean of Khazar University's School of Economics and Management, Fatima Valiyeva, the head of International Relations Department, International Relations Coordinators - Turan Alizade and Arzu Badalova, Eshgin Tanriverdi, an expert of the International Center for the Development of Migration Policy, Lamiya Rzayeva-Ahmedli, the person responsible for projects, Gulnara Panahova, national integration consultant of the project to support the implementation of the partnership on relocation with Azerbaijan.

The primary objective of the meeting was to establish the initial framework of collaboration between Khazar University and the International Center for the Development of Migration Policy and to deliberate on future cooperative endeavors.

It's worth noting that, as part of the MOBILAZE 2 project funded by the European Union, the International Center for the Development of Migration Policy will conduct an information session on the Integration program to enhance social and legal awareness for foreign student migrants at Khazar University.



Çiçək Əliyeva



## DÜNYA VAHİD SAĞLAMLIQ GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

## EVENT DEDICATED TO THE WORLD ONE HEALTH DAY

Noyabrın 30-da Xəzər Universitetinin Həyat elmləri departamentinin təşkilatçılığı ilə Buzovnada yerləşən "Xəzər İnci" otelinin konfrans zalında "Dünya Vahid Sağlamlıq Günü"nə həsr olunmuş maarifləndirici seminar keçirilmişdir. Seminarda Həyat elmləri departamentinin professor-müəllim heyəti ilə yanaşı, departamentin tələbələri də fəal iştirak etmişdir.

Seminarda Həyat elmləri departamentinin müəllimi Çiçək Əliyeva "Zoonoz" xəstəliklər, onların törədiciləri, yayılma səbəbləri və qorunma tədbirləri haqqında geniş məruzə etmiş, tələbələrin çoxsaylı suallarını cavablandırmış və mövzuya uyğun ətraflı diskusiya aparılmışdır.

Seminarından sonra iştirakçılar Xəzər dənizi ətrafında çimərlik ərazisinin təmizlənməsinə cəlb olunmuşdur.

Tədbir Azərbaycanda və bütün dünyada insanlara, heyvanlara və ekosistemlərə təsir edən səhiyyə problemlərini tanımaq və bu barədə məlumatlılığı artırmaq məqsədi daşıyırdı.

On November 30, an educational seminar dedicated to the "World One Health Day" was held in the conference hall of the "Khazar Inji" hotel in Buzovna, organized by the Department of Life Sciences of Khazar University. In addition to the professor-teacher staff of the Department of Life Sciences, the students of the department actively participated in the seminar.

During the seminar, Chichek Aliyeva, a lecturer from the Department of Life Sciences, delivered a comprehensive presentation on "Zoonosis" diseases. Her report covered the causes, methods of transmission, protective measures, and she engaged in an in-depth discussion, answering numerous questions from the participating students.

After the seminar, the participants were involved in cleaning the beach area around the Caspian Sea. The event aimed to recognize and raise awareness of health issues affecting people, animals and ecosystems in Azerbaijan and around the world.





## "XƏZƏR"İN EKOLOJİ TƏDQİQAT MƏRKƏZİNİN DİREKTORU KEMBRİCDƏ KEÇİRİLƏN VÖRKŞOPDA

## KHAZAR UNIVERSITY'S ECOLOGICAL RESEARCH CENTER DIRECTOR ENGAGES IN GLOBAL WORKSHOP IN CAMBRIDGE

Xəzər Universiteti Ekoloji Tədqiqat Mərkəzinin direktoru Rövşən Abbasov 28 noyabr-1 dekabr tarixlərində Böyük Britaniyanın Kembric şəhərində keçirilən, 26 ölkədən 100-ə yaxın nümayəndənin qatıldığı qlobal vörkşopda iştirak edib.

Vörkşopun əsas gündəliyini UNEP WCMC tərəfindən həyata keçirilən "Milli Ekosistem Qiymətləndirmələri" layihəsinin təqdimatı təşkil edib. "Xəzər"in təmsilçisi Rövşən Abbasov vörkşopda "Azərbaycanda milli ekosistem qiymətləndirmələri" mövzusunda çıxış edərək, ona ünvanlanan sualları cavablandırıb.

Önəmli hal budur ki, Ekoloji Tədqiqatlar Mərkəzinin direktoru Rövşən Abbasov bu layihəyə aparıcı müəllif kimi qatılıb və Milli Ekosistem Qiymətləndirilməsi üzrə hesabatın hazırlanmasına rəhbərlik edib.

Rovshan Abbasov, the director of Khazar University's Ecological Research Center, actively participated in a worldwide workshop hosted in Cambridge, Great Britain, with around 100 representatives from 26 countries in attendance from November 28 to December 1.

The central focus of the workshop centered on introducing the "National Ecosystem Assessments" project facilitated by UNEP WCMC. In his presentation, Abbasov, representing Khazar University, discussed "National Ecosystem Assessments in Azerbaijan" and fielded questions from the audience.

Notably, Rovshan Abbasov, director of the Ecological Research Center, assumed a key role in the project as a lead author, guiding the preparation of the National Ecosystem Assessment report.

## TÜRKİYƏLİ PROFESSORUN SEMİNARI

## SEMINAR BY TURKISH PROFESSOR

Dekabrın 1-də Humanitar, təhsil və sosial elmlər fakültəsinin təşkilatçılığı ilə Türkiyə İstanbul Üniversitetinin professoru Eyüp Sarıtaşın seminarı keçirildi. Universitetin əməkdaşları və tələbələrinin iştirakı ilə keçən seminarda E.Sarıtaş "Çin mənbələrinə görə qədim türk tarixi və mədəniyyəti" mövzusunda geniş məruzə etdi.

Məruzədən sonra professor seminar iştirakçılarının suallarını cavablandırdı.

On December 1, the School of Humanities, Education, and Social Sciences organized a seminar of Professor Eyup Sarıtash from Istanbul University, Türkiye. The seminar, attended by university staff and students, featured an in-depth presentation by Professor E.Sarıtash on "Ancient Turkish History and Culture Based on Chinese Sources."

Following the lecture, the professor engaged in a Q&A session with the participants.

## SİNXRON TƏRCÜMƏÇİ İLƏ GÖRÜŞ

## MEETING WITH SIMULTANEOUS INTERPRETER

Dekabrın 1-də Xəzər Universitetində sinxron tərcüməçi Ramal Xosrovzadənin İngilis dili və ədəbiyyatı departamentinin tələbə və müəllim heyəti ilə görüşü təşkil edilib. Tədbir Xəzər Universitetində yeni yaradılmış "Tərcümə mərkəzi"nin koordinatoru Elvin Abbasbəylinin təşəbbüsü ilə keçirilib.

Tədbiri giriş sözü ilə açan Elvin Abbasbəyli görüş iştirakçılarına "Tərcümə mərkəzi"nin yaradılma səbəbi və gələcək planları haqqında məlumat verib sinxron tərcüməçi peşəsindən və öz təcrübəsindən danışıb, tələbələrin çoxsaylı suallarını cavablandırıb.

On December 1, Khazar University organized an event with simultaneous translator Ramal Khosrovzade, engaging students and faculty from the Department of English Language and Literature. The initiative, led by Elvin Abbasbeyli, coordinator of the newly established " Translation and Interpreting Center". Elvin Abbasbeyli, introducing the event, shared insights on the establishment of the " Translation and Interpreting Center," outlined its future plans, discussed the simultaneous interpretation profession, shared personal experiences, and addressed numerous student inquiries.



# İSTANBUL KÜLTÜR UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

# MEETING WITH ISTANBUL CULTURE UNIVERSITY REPRESENTATIVE AT KHAZAR UNIVERSITY

*Sevda Feyzullayeva*

Dekabrın 4-də Xəzər Universitetində İstanbul Kültür Universitetinin nümayəndəsi ilə görüş keçirilmişdir.

Görüşdə İstanbul Kültür Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Sevda Feyzullayeva, Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova, Fizika və elektronika departmentinin müdiri Fərida Tatardar, Həyat elmləri departmentinin müdiri Cəmalə Eldarova, Təbiət elmləri, sənət və texnoogiya yüksək təhsil fakültəsinin dekan əvəzi Məhəmməd Eldarov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Tarix və arxeologiya departamentinin müəllimi Nurlan Nəsirov iştirak etmişlər.

Görüşdə hər iki tərəf fəaliyyətləri barədə qısa məlumat vermiş, gələcək əməkdaşlıq imkanları, tələbə, işçi heyəti mübadiləsi və digər imkanlar müzakirə olunmuşdur. Sonra Beynəlxalq əlaqələr şöbəsində qonağa şöbənin fəaliyyəti haqqında məlumat verilmişdir.

On December 4, a meeting took place at Khazar University with a representative from Istanbul Culture University. Attendees included Sevda Feyzullayeva from the International Relations Department of Istanbul Culture University, along with various representatives from Khazar University, such as Nurlan Nasirov, dean of the School of Humanities, Education and Social Sciences of Khazar University, Dilbar Zeynalova, head of the Department of Languages and Literatures, Farida Tatardar, head of the Physics and Electronics Department, Jamala Eldarova, Head of the Life Sciences Department, Mahammad Eldarov, deputy dean of the Graduate School of Science, Art and Technology, Fatima Valiyeva, head of the International Relations Office.

During the meeting, both groups provided concise overviews of their respective activities, engaging in discussions about potential future collaborations, including opportunities for student and staff exchanges. Subsequently, the guest received detailed information about the initiatives and functions of the International Relations Department.



*Cəmalə Eldarova, Məhəmməd Eldarov, Fatimə Vəliyeva, Nurlan Nəsirov, Fərida Tatardar*

## İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİNİN KOORDİNATORU TURİZM ÜZRƏ İXTİSASLAŞMIŞ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İLK TOPLANTISINDA

## COORDINATOR OF THE DEPARTMENT OF ECONOMICS AND MANAGEMENT AT THE FIRST MEETING OF TOURISM-SPECIALIZED EDUCATIONAL INSTITUTIONS




*Bahadır Baysal*

Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Bahadır Baysal dekabrın 4-5-də İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Azərbaycan Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə turizm üzrə ixtisaslaşmış təhsil müəssisələrinin Bakıda keçirilən ilk toplantısında iştirak edib.

Tədbirdə İƏT-ə üzv olan doqquz ölkədən (Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan, İran və Pakistan) rəsmi şəxslər, turizm üzrə təhsil müəssisələri və BMT-nin Ümumdünya Turizm Təşkilatının nümayəndələri iştirak edirdilər.

Görüş 3 bölmədən ibarət idi: 1-hökumət, akademik sahə və sənayenin birliyi, turizm təhsilində ən yaxşı təcrübələr, 2-kurikulum hazırlanması: sabahın ehtiyacları üçün turizm təhsilinin artırılması və 3-innovasiya və texnologiya, turizm təhsilində yaranan tendensiyalar.

Konfransın sonunda müzakirələr aparılıb.

Dr. Bahadir Baysal, the coordinator of Economic and Management of Khazar University participated in the first meeting of tourism-specialized educational institutions organized by Economic Cooperation Organization (ECO) and the State Tourism Agency of Azerbaijan in Baku on December 4–5. The event was attended by officials from nine ECO member countries (Azerbaijan, Türkiye, Kazakhstan, Uzbekistan, Turkmenistan, Kyrgyzstan, Tajikistan, Iran and Pakistan), educational institutions on tourism and representatives of the UN World Tourism Organization.

The meeting consisted of 3 sections 1-connecting, government, academia, and industry: best practices in tourism education, 2-curriculum design: enhancing tourism education for tomorrow's needs and 3-innovation and technology: emerging trends in tourism education.

Discussions were made at the end of the conference.

# STRASBURQ UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

# DELEGATES FROM THE UNIVERSITY OF STRASBOURG AND KHAZAR UNIVERSITY



*Yan-Mark Planeks* *İradə Xəlillova*

Dekabrın 5-də Strasburq Universiteti və Xəzər Universitetinin nümayəndələrinin iştirakı ilə toplantı keçirildi.

Görüşdə Strasburq Universitetinin prorektoru Prof. Yan-Mark Planeks, UFAZ-ın direktoru Dr. Lətifə Nəsibova, UFAZ-ın baş katibi Dr. Elizaveta Budanova, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlillova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak edirdi.

Görüş zamanı gələcək birgə işlər müzakirə edilib. İki universitet arasında əməkdaşlıq, tədqiqat qruplarının yaradılması və birgə seminarların keçirilməsi planlaşdırılıb.

Görüşün sonunda rektor Xəzər Universiteti adından qonaqlara hədiyyə təqdim edib.

On December 05, a gathering took place involving delegates from the University of Strasbourg and Khazar University.

Among the participants were Prof. Jan-Marc Planex, vice-president of the University of Strasbourg, Dr. Latifa Nasibova, director of UFAZ, Dr. Elizaveta Bydanova, secretary general of UFAZ, Prof. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Assoc. Prof. Irada Khalillova, rector of the University, Dr. Fakhranda Afandiyeva, dean of the School of Science and Engineering. Fatima Valiyeva, head of the International Relations Department.

During the meeting, future joint work was discussed. It is planned to collaborate between two universities, create research teams, and perform joint seminars.

The conclusion of the meeting featured the rector presenting a gift to the visitors on behalf of Khazar University.

# "NORM SEMENT" ŞİRKƏTİNİN TƏLİMLƏR SESSİYASI
# TRAINING SESSION OF "NORM CEMENT" COMPANY

Noyabrın 27-də Karyera Mərkəzinin təşkilatçılığı ilə "Norm sement" şirkəti tərəfindən "Faydalı başlanğıc üçün məsləhətlər (yumşaq bacarıqlar)" ("Tips for Advantageous Start (Soft Skills)" adlı təlim keçirilib. Təlimin məqsədi barədə şirkətin Təminat və kapital xərclər üzrə direktoru Serdar Çamdal məlumat verərək, təlimə başlayıb. Sonra o, tələbələrə "yumşaq bacarıq"ların nə olduğunu, onları qazanmağın yollarını izah edib. Təlimin sonunda tələbələrə müvafiq ədəbiyyat tövsiyə olunub

***

Noyabrın 28-də Karyera Mərkəzinin təşkilatçılığı ilə "Norm sement şirkəti"nin "Reading Financial Statements" maliyyə hesabatlarının oxunmasına aid təlimi baş tutub. Bu təlimi Maliyyə meneceri Dünyamin Səfərəliyev keçirib. O, tələbələrə "Norm"un prinsipləri və məhsulları haqqında məlumat verib, maliyyənin nə olduğunu və bu sahəni seçməyin mahiyyətini açıqlayıb. Sonra menecer tələbələrə "Norm sement"in maliyyə hesabatlarını göstərərək, onları necə oxumağın, nələrə diqqət yetirməyin vacibliyini və hesablamalar aparmağın yollarını izah edib.

Sonda Dünyamin Səfərəliyev tələbələrin suallarını cavablandırıb.

***

Dekabrın 6-da Karyera Mərkəzinin təşkilatçılığı ilə "Norm sement" şirkətinin növbəti təlimi də keçirilib. Bu təlim isə "Kommersiya əməliyyatları -başlanğıcdan bazar lideri olana qədər" "Commercial Operations (Starting from beginning till being of market leader)" mövzusuna aid olub. Təlimi Sement və texniki satış meneceri Fuad Məmmədov keçirib.

İki hissədən ibarət olan təlimin birinci hissəsində kommersiya əməliyyatları haqqında məlumat verilib və bunlardan təcrübədə necə istifadə etməyin yollları izah olunub. İkinci hissədə tələbələrlə interaktiv oyun keçirilib. Onlar 2 komandaya bölünüblər və hər birinin əlindəki limitsiz maliyyə sənədləri ilə hansı biznesi qura biləcəklərinin mümkünlüyü araşdırılıb . Hər iki komanda öz biznes planını qurub və komanda liderləri öz biznes planlarını auditoriyaya təqdim ediblər.

Tələbələrlə aparılan sual - cavab prosesi ilə tədbir başa çatıb.

On November 27, the "Norm Cement" company organized a training session entitled "Tips for Advantageous Start (Soft Skills)" through the coordination of the Career Center. Serdar Chamdal, the director of Supply and Capital Expenditure at the company, outlined the purpose of the training and commenced the session. Subsequently, he provided insight to the students on the definition of "soft skills" and how to develop them. The training concluded with recommended literature for the attendees.

***

On November 28, the "Reading Financial Statements" training of the "Norm cement company" was organized by the Career Center. Led by Finance Manager Dunyamin Safaraliyev, the training provided insights into the principles and products of "Norm," elucidated the concept of finance, and highlighted the rationale behind choosing this field. Dunyamin Safaraliyev then guided the students through the financial reports of "Norm Cement," demonstrating how to interpret them, identify key elements, and perform calculations.

The session concluded with Dunyamin Safaraliyev addressing questions from the students.

***

On December 6, the Career Center organized the latest workshop for the "Norm Cement" company. The training, focusing on "Commercial Operations (Starting from beginning till being of market leader)" was facilitated by Fuad Mammadov, the Oil Well Cement and Technical Sales Manager.

The initial segment of this two-part session delivered insights into commercial operations, offering practical applications. The subsequent part engaged students through an interactive game. Divided into two teams, participants explored the feasibility of establishing a business using unlimited financial resources. Both teams formulated business plans, with team leaders presenting their strategies to the audience.

The event concluded with a question-and-answer session involving the students.




*Pərvin Qəhrəmanova, Eşqin Tanrıverdi, Lamiyə Rzayeva-Əhmədli*

# İNTEQRASİYA PROQRAMI HAQQINDA MƏLUMAT SESSİYASI

Dekabrın 7-də Xəzər Universitetində ICMPD-nin (Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz) Azərbaycandakı nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində xarici tələbələrin sosial və hüquqi maarifləndirilməsini təmin etmək məqsədi ilə İnteqrasiya proqramı haqqında məlumat sessiyası keçirilib. Sessiyada universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, Beynəlxalq əlaqələr üzrə koordiantor Turan Əlizadə, qarşı tərəfdən isə ICMPD-nin eksperti Eşqin Tanrıverdi, Layihələr üzrə məsul şəxs Lamiyə Rzayeva-Əhmədli, Azərbaycanla yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək layihəsinin milli inteqrasiya məsləhətçisi Gülnarə Pənahova iştirak etmişdir. İştirakçılar layihə çərçivəsində ICMPD-nin fəaliyyət istiqamətləri və əcnəbi tələbələrin yararlana biləcəyi inteqrasiya proqramının xidmətləri barədə məlumat veriblər.

Məlumatlandırma sessiyasında ICMPD-nin İnteqrasiya Proqramı çərçivəsində Azərbaycan Mərkəzi Bankının Maliyyə savadlılığı şöbəsinin aparıcı mütəxəssisi Pərvin Qəhrəmanova da iştirak edib. O, maliyyə savadlılığının əsasları ilə yanaşı, əcnəbi tələbələr üçün Azərbaycanda bank məhsullarına çıxış və istifadənin yolları barədə də ətraflı məlumat verib.

# INFORMATION SESSION ON INTEGRATION PROGRAM

On December 7, Khazar University, in collaboration with ICMPD (International Center for Migration Policy Development) in Azerbaijan, conducted an informational event focusing on offering social and legal education to foreign students. Fatima Valiyeva, the head of the International Relations Department, Turan Alizade, International Relations Coordinator, Eshgin Tanriverdi, an expert from the International Center for the Development of Migration Policy, Lamiya Rzayeva-Ahmedli, project responsibility holder, and Gulnara Panahova, the national integration consultant of the relocation partnership with Azerbaijan, participated in the session. The participants were briefed on ICMPD's project activities and the services provided by the integration program for foreign students

The participants informed about the activities of ICMPD within the project and the services of the integration program that foreign students can take advantage of.



Parvin Kahramanova, the leading specialist from the Central Bank of Azerbaijan's Financial Literacy Department, also contributed to the Integration Program's information session. Besides covering the fundamentals of financial literacy, she provided comprehensive insights into how international students can access and utilize bank products in Azerbaijan.

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ "AZƏRBAYCANIN MÜNAQİŞƏDƏN SONRAKI MÜDAFİƏ VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ" ADLI KONFRANSDA

# HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY ATTENDED THE AZERBAIJAN'S POST-CONFLICT DEFENSE AND SECURITY POLICY CONFERENCE

Dekabrın 7-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Azərbaycan Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanın münaqişədən sonrakı müdafiə və təhlükəsizlik siyasəti" adlı konfrans keçirilib. Konfransı giriş sözü ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Dr. Fərid Şəfiyev açıb. Nazir müavini Araz Əzimov əsas məruzə ilə çıxış edib.

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin dəvəti ilə konfransın iştirakçısı olub.

On December 7, the AIR Center and the Ministry of Foreign Affairs of Azerbaijan co-organized a conference entitled "Azerbaijan's Post-Conflict Defense and Security Policy: A Brainstorming Event". The conference commenced with the opening speech by Dr. Farid Shafiyev, chairman of the Board of the Center of Analysis of International Relations. The keynote speech was delivered by Deputy Minister Araz Azimov

At the invitation of the AIR Center, Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy of Khazar University, also participated at the conference.

# "ƏMƏKDAŞLAR ÜÇÜN İNGİLİS DİLİ" KURSU YENİDƏN FƏALİYYƏTİNİ DAVAM ETDİRİR

# CONTINUATION OF THE "ENGLISH FOR STAFF MEMBERS" COURSE



İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi "Əməkdaşlar üçün ingilis dili" kursu dekabr ayının 1-dən etibarən yenidən fəaliyyətini davam etdirir. Əməkdaşlar öncədən keçirilmiş səviyyə testinə uyğun olaraq, iki səviyyədə qruplara ayrılmışdır. Dərslər mütəmadi olaraq, hər həftə İngilis dili və ədəbiyyatı departamentinin ştat müəllimi Leyla Alməmmədova tərəfindən aparılır.

The course titled "English for Staff Members," conducted by the Department of English Language and Literature, is ongoing as of December 1. Participants have been categorized into two levels based on a preliminary proficiency test. Classes are conducted consistently every week, led by Leyla Almammadova, a full-time instructor in the Department of English Language and Literature.

# ERCİYES UNİVERSİTETİNDƏN DƏVƏT OLUNMUŞ ROFESSORUN SEMİNARLARI

# GUEST PROFESSOR SEMINARS FROM ERCIYES UNIVERSITY





*Mustafa Soylak*

Dekabrın 7-8-də Türkiyənin Erciyes Universitetinin professoru Dr. Mustafa Soylak Xəzər Universitetində ikigünlük səfərdə olmuşdur.

Səfərin ilk günündə Dr. Mustafa Soylak universitetin müəllim və professor heyəti, doktorant tələbələri və dəvət olunmuş qonaqlar üçün "Ətraf mühit nümunələrində üzvi və qeyri-üzvi növlərin əsər-miqdarda analiz edilməsində yeni trendlər" ("New Trends in Determination of Trace Organic and Inorganic Species in Environmental Samples") adlı seminar keçirdi.

Səfərin ikinci günündə isə Kimya mühəndisliyi, Neft mühəndisliyi, Kimya müəllimliyi və Kimya-biologiya müəllimliyi ixtisaslarında təhsil alan tələbələr ilə görüşü baş tutdu. Görüşdə professorun akademik və professional fəaliyyətindən, nailiyyətlərindən danışıldı və Dr. Mustafa Soylak tələbələrə öz məsləhətlərini verdi. Görüş diskussiya formatında keçdi və tələbələrin sual-cavab sessiyası ilə başa çatdı.

İkigünlük tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, Təbiət və mühəndislik fakültəsinin professor və müəllim heyəti, doktorant tələbələr, ``Sukanal`` Elmi-Tədqiqat və Layihə İnstitutu, Tibb Universiteti və AMEA Fizika İnstitutundan qonaqlar iştirak etmişlər.

On December 7-8, Dr. Mustafa Soylak, a professor from Erciyes University in Türkiye, visited Khazar University for a two-day session.

During the initial day of the visit, Dr. Mustafa Soylak conducted a seminar titled "New Trends in Determination of Trace Organic and Inorganic Species in Environmental Samples". The seminar was attended by university teachers, professors, doctoral students, and invited guests.

On the second day, a meeting took place with students from Chemical Engineering, Petroleum Engineering, Chemistry, and Chemistry-Biology Education. The session involved discussions about Dr. Mustafa Soylak's academic and professional endeavors, and he shared valuable advice with the students. The meeting followed a discussion format, concluding with a question-and-answer session involving the students.

The two-day event was attended by Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees, along with professors, teaching staff from the School of Science and Engineering, doctoral students, and guests from the "Sukanal" Scientific Research and Project Institute, the Medical University, and the Physics Institute of ANAS.

## MUZEYDƏ NÖVBƏTİ ARXEOLOGİYA DƏRSİ

Dekabrın 2-də və 9-da Xəzər Univeristetinin Tarix müəllimliyi və Tarix-coğrafiya müəllimliyi ixtisaslarının 1-ci kurs tələbələri üçün Arxeologiya və etnoqrafiyanın əsasları fənninin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə AMEA Arxeologiya, Etnoqrafya və Antropologiya İnstitutunun Muzey-Sərgi zalına ekskurs muzey dərsləri təşkil olunub..

Tələbələr tarixin fərqli dövrlərinə aid arxeoloji və antropoloji eksponatlarla - silahlar, bəzək, ev və təsərrüfat əşyaları ilə tanış olmuş və genis məlumat əldə etmişlər. Bu eksponatlar Azərbaycan tarixinin və maddi - mədəni irsinin böyük bir dövrünü, eləcə də, o dövr insanlarının məişətini və dünyagörüşünü əks etdirir.

Dərs sual-cavabla yekunlaşıb.

## NEXT ARCHEOLOGY LESSON IN THE MUSEUM

On December 2 and 9, guided museum classes were arranged at the Museum-Exhibition Hall of the Institute of Archaeology, Ethnography, and Anthropology of ANAS for first-year students in History Education and History-Geography Education at Khazar University. The sessions were conducted under the guidance of Orkhan Zamanov, the instructor of the subject Archaeology and Ethnography fundamentals.

During these sessions, students explored archaeological and anthropological exhibits spanning various historical periods. The exhibits included weaponry, adornments, and household items, providing comprehensive insights into Azerbaijan's historical periods, material and cultural heritage, and the lifestyle and perspectives of its people.

The lesson concluded with a question-and-answer session.

## TƏLƏBƏLƏR "QALA" DÖVLƏT TARİX- ETNOQRAFİYA VƏ "ATƏŞGAH MƏBƏDİ" DÖVLƏT TARİX-MEMARLIQ QORUQLARINDA

## STUDENTS IN "GALA" STATE HISTORICAL-ETHNOGRAPHIC AND "ATESHGAH TEMPLE" STATE HISTORICAL-ARCHITECTURAL RESERVES



Dekabrın 10-da Humanitar, təhsil və sosial elmlər fakültəsinin "Tarix müəllimliyi" ixtisası üzrə təhsil alan III kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d. Yaqub Məmmədovun rəhbərliyi ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya, həmçinin "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq qoruqlarında ekskursiyada olublar. Qədim od məbədi və Etnoqrafik muzeylə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edib.

On December 10, third year students of the School of Humanities, Education and Social Sciences majoring History Education arranged an excursion to the "Gala" State Historical and Ethnographic Reserve, as well as Ateshgah Temple under the guidance of the faculty member of the Department of History and Archeology PhD in History Yagub Mammadov.

Exploring the ancient fire temple and the Ethnographic museum enhanced the students' theoretical understanding.




## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ DÖŞ NİŞANI İLƏ TƏLTİF EDİLDİ

Hədəf Şirkətlər Qrupunun baş ofisində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ülvi Babasoy "Elm və təhsil sahəsində səmərəli fəaliyyətinə görə" "Hədəf Şirkətlər Qrupu"nun "Hədəf-15" döş nişanı ilə təltif edilmişdir

## RECOGNITION FOR DEPARTMENT OF LANGUAGES AND LITERATURES LECTURER: AWARDED WITH A BADGE

On December 22, Ulvi Babasoy, the lecturer of the Department of Languages and Literatures holding a PhD in Philology, received the "Hadaf-15" badge from the "Hadaf Group of Companies" at their headquarters. This recognition was granted for his impactful contributions to the realms of science and education.

## "BİR ÖMÜR PSİXİ SAĞLAMLIQ" SİMPOZİUMUNDA "BOŞANMA, YOXSA AİLƏ PSİXOTERAPİYASI" MÖVZUSUNDA MƏRUZƏ

## PRESENTATION ON "DIVORCE OR FAMILY PSYCHOTHERAPY" AT "LIFELONG MENTAL HEALTH" SYMPOSIUM

Dekabrın 7-10-da Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Bir ömür psixi sağlamlıq" simpoziumunda Psixologiya departamentinin koordinatoru, psixoloq Mələk Kərimova "Boşanma, yoxsa Ailə psixoterapiyası?" mövzusunda məruzəçi qismində çıxış etmişdir. O, öz çıxışında ailə ünsiyyətini artıran faktorları qeyd etməklə yanaşı, sivil boşanma və ölkəmizdə son illərdə tətbiqi başladılan mediasiya institutu haqqında fikirlərini ifadə etmişdir. İştirakçıların suallarını cavablandıran M. Kərimova elmi və praktiki biliklərini də onlarla bölüşmüş, cütlüklərin kriz zamanı ailə psixoloqlarına müraciətinin zəruri olduğunu qeyd etmiş, boşanmadan sonra tərəflərə göstəriləcək psixoloji xidmətin əhəmiyyətli olduğunu vurğulamışdır.

"Yeni Klinika"da "Nəfəs" Psixonevroloji Sağlamlıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən bu tədbirdə xarici ölkələrdən və yerli mütəxəssislərdən ibarət qonaqlar bütün yaş mərhələlərinə uyğun olaraq psixi çətinliklər və profilaktik tədbirlər mövzusunda interaktiv müzakirələr təşkil etmişlər.

On December 7-10, 2023, at the "Lifelong mental health" symposium dedicated to the 100th anniversary of Heydar Aliyev, psychologist Melek Karimova, the coordinator of the Department of Psychology, spoke on "Divorce or Family Psychotherapy?" as a speaker. Alongside highlighting factors fostering family communication, she shared insights on civil divorce and the institution of mediation, which has been introduced in our country in recent years. Answering participants' questions, M. Karimova imparted her scientific and practical knowledge, emphasizing the need for couples to consult family psychologists during crises and underscoring the importance of post-divorce psychological services.

The "Lifelong Mental Health" symposium, hosted by the "Nafas" Psychoneurological Health Center at "Yeni Klinika" and attended by international guests and local experts, facilitated interactive discussions addressing mental challenges and preventive measures for diverse age groups.

# NƏFƏS KLİNİKASININ TƏCRÜBƏLİ HƏKİMİ "XƏZƏR"İN QONAĞI OLUB

# EXPERIENCED DOCTOR OF NAFAS CLINIC VISITS KHAZAR UNIVERSITY




*Fəhmin Haqverdiyev, Mələk Kərimova*

Dekabrın 11-də Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın təşkilatçılığı ilə Türkiyənin Hacettepe Universitetinin məzunu, Nəfəs Klinikasının təcrübəli həkimi, psixiatr Fəhmin Haqverdiyev Xəzər Universitetinin qonağı olub. O, tələbələrə "Loqoterapiya və ekzistensial terapiyalar" mövzusunda mühazirə oxuyub.

Loqoterapiya Avstriyalı neyropsixiatr Viktor Frankl tərəfindən yaradılan bir psixoterapiya növüdür. Loqoterapiya insanın həyatında mənanın və məqsədin əhəmiyyətini vurğulayaraq, psixika və ruh sağlamlığını inkişaf etdirməyə nail olmağı hədəfləyir.

Fəhmin Haqverdiyev də məhz yuxarıda qeyd edilən mövzu ətrafında tələbələrə terapiyaların tarixi inkişafını və fəlsəfəsini ətraflı şəkildə izah edib. Loqoterapiyanın mühüm əhəmiyyəti və bu sahədə fəaliyyət göstərən terapistlərin həssas yanaşmaları, seanslarda diqqət ediləcək məqamlar və müzakirə ediləcək mövzular da mühazirənin əsas məzmununu təşkil edib.

Seminar zamanı tələbələrlə aktiv şəkildə müzakirələr aparılıb. Müzakirələrdə Loqoterapiyanın müasir dövrdəki əhəmiyyəti bir daha vurğulanıb.

On December 11, Fahmin Hagverdiyev, a graduate of Türkiye's Hacettepe University, experienced doctor of Nafas Clinic, psychiatrist, was hosted by Khazar University through the coordination of Melek Karimova, the Psychology Department's coordinator. He delivered a lecture titled "Logotherapy and Existential Therapies" to the students.

During the lecture, Fahmin Hagverdiyev, the speaker, elucidated the principles of logotherapy, a psychotherapeutic approach pioneered by Austrian neuropsychiatrist Viktor Frankl. Emphasizing the significance of meaning and purpose in one's life, logotherapy aims to enhance mental and spiritual well-being. Hagverdiyev also provided a detailed exploration of the historical development and philosophy of therapies related to the topic. The primary focus of the lecture encompassed the crucial importance of logotherapy, highlighting the nuanced approaches employed by therapists in this field. The session covered key considerations for therapy sessions and outlined relevant discussion topics.

The seminar witnessed active engagement from students, fostering discussions that reiterated the contemporary relevance and importance of logotherapy in the present era.



*İsaxan İsaxanlı*

## NAXÇIVANDA İNFOTUR

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı və Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova dekabrın 11-də Naxçıvanda keçirilən İNFOTUR-da iştirak etdilər.

İNFOTUR "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində özəl təhsil müəssisələrinin yaradılması üçün sahibkarlar arasında təşviqat işlərinin aparılması məqsədilə keçirilirdi.

İNFOTUR-un açılışında Naxçıvan Muxtar Respublikasının rəhbər şəxsləri - Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, təhsil naziri vəzifələrini icra edən, iqtisadiyyat naziri vəzifələrini icra edən, maliyyə naziri vəzifələrini icra edən və digər rəsmi şəxslər və qonaqlar, eləcə də Bakıda fəaliyyət göstərən bir sıra özəl təhsil müəssisələrinin və təhsillə bağlı müxtəlif təşkilatların nümayəndələri iştirak edirdilər.

Tədbirdə çıxış edən rəsmi şəxslər Naxçıvan Muxtar Respublikasında özəl təhsil müəssisələri açmaq istəyən sahibkarlara hərtərəfli şəraitin yaradılacağını və onlara rəsmi orqanlar tərəfindən hər cür dəstək göstəriləcəyini qeyd etdilər.

Sonra sahibkarların fikir və təklifləri dinlənildi, on-

## INFOTUR IN NAKHCHIVAN

Isakhan Isakhanli, Khazar University's vice-rector for Administration and Student Affairs, along with Zulfiyya Sadigova, the head of the Department of Music and Arts, participated in the INFOTOUR held in Nakhchivan on December 11.

INFOTUR aimed to engage entrepreneurs in advocating for the establishment of private educational institutions within the framework of the "State Program for the Socio-Economic Development of the Nakhchivan Autonomous Republic for 2023-2027."

Officials from the Nakhchivan Autonomous Republic - Deputy Prime Minister of the Nakhchivan Autonomous Republic, Acting Minister of Education, Acting Minister of Economy, Acting Minister of Finance and other officials and guests, as well as representatives from private educational institutions in Baku and various organizations related to education, attended the INFOTUR opening.

Event speakers highlighted that entrepreneurs desiring to establish private educational institutions in the Nakhchivan Autonomous Republic would receive comprehensive support and conditions from

ları maraqlandıran suallar cavablandırıldı.

Tədbirdə Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı çıxış edərək, Xəzər Universiteti və "Dünya" məktəbi haqqında məlumat verdi, "Dünya" məktəbinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərmək arzusunu dilə gətirdi və bu istiqamətdə tədris üçün bina və ya uyğun torpaq sahəsinin ayrılması, tikintiyə icazə və uyğun şərtlərlə kredit verilməsi kimi məsələlərin vacibliyindən danışdı. Qaldırılan bu məsələlər ətrafında təhsil naziri vəzifələrini icra edən, nazir müavini Elxan Nəcəfov fikrini bildirdi, məsələ ilə bağlı uyğun təşkilatlarla fikir mübadiləsi aparılmasının mümkünlüyünü və vacibliyini qeyd etdi.

İNFOTUR iştirakçıları üçün Əshabi-kəhf ziyarətgahına, Batabat gölünə və Duzdağ fizioterapiya mərkəzinə ekskursiya təşkil olunmuşdur.

official bodies.

Entrepreneurs presented their ideas and proposals, with officials addressing their queries and providing answers.

Isakhan Isakhanli shared information about Khazar University and "Dunya" school, expressing the school's interest in operating in Nakhchivan and discussing issues such as building allocation, construction permission, and favorable credit terms. Acting minister of Education, Deputy Minister Elkhan Najafov expressed his opinion on these matters and noted the possibility and importance of exchanging views with relevant organizations on this issue.

INFOTUR participants enjoyed an excursion to Ashabi-kahf Sanctuary, Batabat Lake, and the Duzdag Physiotherapy Center.

# NAXÇIVAN MUSİQİ KOLLECİNDƏ
# AT NAKHCHIVAN MUSIC COLLEGE



*Nərmin Məmmədli, Zülfiyyə Sadıqova, Məhəbbət Babayeva, Kənan Məmmədli, İsaxan İsaxanlı*

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, Musiqi və incəsənət departamentinin

*(Ardı səh.42-də)*

Isakhan Isakhanli, the vice-rector for Administration and Student Affairs at Khazar University, and Zulfiyya Sadigova, the head of the

*(To be continued page 42)*

müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqova dekabrın 11-də Naxçıvan Musiqi Kollecində olublar.

Müəllim kollektivi və tələbələrlə görüşdə Zülfiyyə Sadıqova fortepiano ilə əsərlər ifa etmişdir. Sonra o, fortepiano ixtisası üzrə təhsil alan tələbələrin ifasını dinləmiş, klassiklərin polifonik üslubda yazılmış əsərlərinin ifa xüsusiyyətləri mövzusunda ustad dərsi keçmişdir.

Music and Art Department and honored teacher, distinguished pianist, paid a visit to Nakhchivan Music College on December 11. During the meeting with the faculty and students, Zulfiyya Sadigova performed works on the piano. Subsequently, she attentively listened to the piano students' performances and conducted a master class focusing on the performance characteristics of classical compositions written in a polyphonic style.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ

## KHAZAR UNIVERSITY REPRESENTATIVES VISIT NAKHCHIVAN STATE UNIVERSITY



*İsaxan İsaxanlı, Zülfiyyə Sadıqova, Məhəbbət Babayeva, Cavid İsmayılov, Rafiq Rəhimov, Elsevər Əsədov, Səadət Əliyeva*

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı, Musiqi və incəsənət departamentinin rəhbəri Zülfiyyə Sadıqova dekabrın 12-də Naxçıvan Dövlət Universitetində (NDU) olublar.

İkitərəfli görüşdə NDU-nun Tədris və

Isakhan Isakhanli, Vice-Rector for Management and Student Affairs at Khazar University, along with Zulfiyya Sadigova, Head of the Department of Music and Art, paid a visit to Nakhchivan State University (NSU) on December 12.

During the bilateral meeting, Rafig Rahimov,



Rafiq Rəhimov, İsaxan İsaxanlı

tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qonaqları salamlayaraq, onları universitetdə görməkdən məmnunluğunu bildirib. Prorektor ali təhsil ocağının maddi-texniki bazası, müasir tədris üsulları, beynəlxalq əlaqələri barədə danışıb.

Xəzər Universitetiin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı 1991-ci ildə Xəzər Universitetinin Azərbaycanda ilk dəfə özəl universitet kimi fəaliyyətə başladığını diqqətə çatdırıb. Prorektor tədrisi ingilis dilində həyata keçirilən ixtisaslar barədə ətraflı məlumat verib.

NDU-nun Elm və innovasiyalar üzrə prorektoru Elsever Əsədov çıxış edərək, birgə əməkdaşlıq məsələlərinə toxunub. Universitetlər arasında geniş heyətdə görüşün keçirilməsi və ayrı-ayrı sahələr üzrə əməkdaşlıq barədə fikir mübadiləsi aparmaq qərara alınmışdır.

Sonda qonaqlara "Naxçıvan - Şərqin əfsanəsi" kitabı hədiyyə edilib.



Cavid İsmayılov, Zülfiyyə Sadıqova

NSU's Vice-Rector for Education, warmly welcomed the guests, expressing satisfaction at their presence in the university. The vice-rector provided insights into the university's material and technical infrastructure, modern teaching methodologies, and international partnerships.

Isakhan Isakhanli, Khazar University's Vice-Rector for Administration and Student Affairs, emphasized that Khazar University commenced its operations as Azerbaijan's first private university in 1991. He offered a comprehensive overview of the English-taught specialties.

Elsever Asadov, NSU's Vice-Rector for Science and Innovations, addressed the audience, discussing collaborative opportunities. Plans were made to convene a meeting involving numerous universities to discuss potential cooperation in various fields.

The gathering concluded with the presentation of the book "Nakhchivan - Legend of the East" to the guests.

# "İQTİSADÇI" KLUBU MALİYYƏ VƏ MÜHASİBATLIQ İXTİSASI ÜZRƏ İŞ DÜNYASI İLƏ ƏLAQƏLƏRİ GENİŞLƏNDİRİR

# STRENGTHENING TIES BETWEEN "ECONOMIST" CLUB AND BUSINESS IN FINANCE AND ACCOUNTING

Dekabrın 13-də Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin nəzdində fəaliyyət göstərən "İqtisadçı" tələbə inkişaf klubunda "Maliyyəçi və mühasib peşəsi: iş dünyası və universitet təhsilindəki son trendlər" mövzusunda elmi-praktik seminar təşkil olunmuşdur. Seminarda təcrübəli maliyyəçi, BERC Group təşkilatının maliyyə, vergi uçotu və mühasibatlıq üzrə mütəxəssisi Samir Ağayev mövzu üzrə geniş təqdimatla çıxış etmişdir. 60-a yaxın tələbənin iştirak etdiyi seminarda Samir Ağayev iş dünyası və universitet təhsilindəki uzunmüddətli təcrübəsi əsasında tələbələrin əmək bazarının standartlarına uyğun mütəxəssis kimi formalaşması üçün zəruri olan bilik və bacarıqlar, onların əldə edilməsi üsul və formaları, maliyyə yönümlü ixtisaslar üzrə əmək bazarındakı son durum, mövcud imkanlar, təhdidlər və perspektivlər barədə məlumat vermişdir.

Seminarda maliyyə və mühasibatlıq peşələrinin xüsusiyyətləri, vəzifə öhdəlikləri, əmək bazarındakı əsas tələblər, maliyyə-mühasibat üzrə qanunvericilik bazası, proqram təminatları, beynəlxalq və yerli sertifikasiyalar, yumşaq və sərt bacarıqlar, fərdi inkişaf üçün maliyyə təhsili imkanları, həmçinin maliyyəçi və mühasib kadrların hazırlanmasına münasibətdə iş dünyası ilə universitetlərin yanaşmalarının müqayisəli təhlili və s. mövzular barədə interaktiv müzakirələr aparılmışdır.

Təlimdən sonra tələbələrin mövzu barədə əlavə sualları cavablandırılmış və onlara universitetdə tədris edilən maliyyə yönümlü fənlərə daha ciddi hazırlaşmaları üçün zəruri tövsiyələr verilmişdir.

On December 13, a scientific-practical seminar titled "Financier and Accountant Profession: Latest Trends in Business and University Education" was conducted by the "Economist" student development club under the Department of Economics and Management at Khazar University. Samir Agayev, an experienced expert in finance, tax accounting, and BERC Group, delivered a presentation during the seminar, attended by approximately 60 students. Samir Agayev shared insights into the knowledge and skills essential for shaping students into industry-ready professionals, detailing methods and forms of acquisition, the current landscape of the job market for finance-focused roles, and existing opportunities, threats, and prospects.

The seminar fostered interactive discussions on nuances of finance and accounting professions, job responsibilities, key requirements in the job market, financial accounting legislation, software, international and local certifications, soft and hard skills, opportunities for financial education and personal development, and a comparative analysis of university approaches to training financiers and accountants with the business world.

Following the session, students posed additional questions on the topic, receiving answers and recommendations for more comprehensive preparation in financial-oriented subjects taught at the university.

# "OXU STRATEGİYASI" FƏNNİ ÜZRƏ İNTEQRATİV DƏRSLƏR

# INTEGRATIVE LESSONS ON "READING STRATEGY"

Dekabrın 13-də Dillər və ədəbiyyatlar departamentinin müəllimi, fil.ü.f.d.Sevinc Qəmbərovanın tədris etdiyi "Oxu strategiyası" fənni üzrə qonaq spikerlərin dəvəti metodu ilə inteqrativ dərslər təşkil olunub. Dərslərdə "Xan" nəşriyyatının direktoru, yazıçı Səbuhi Şahmursoy, "Kolleksioner" kitabının müəllifi Elay, "Simurq" nəşriyyatının direktoru, yazıçı Amin Orucov və "Məktublar arxasında" əsərinin müəllifi, şair və ssenarist Pərviz Seyidli qonaq qismində iştirak ediblər.

Müəlliflərin bədii ədəbiyyatın insan həyatındakı

On December 13, integrative classes were conducted by inviting guest speakers on the subject "Reading strategy" lectured by the faculty member of the Department of Languages and Literatures, PhD in Philology Sevinj Gambarova. Director of "Khan" publishing house, writer Sabuhi Shahmursoy, author of the book "Collector" Elay, director of "Simurg" publishing house, writer Amin Orujov and author of "Behind the Letters", poet and screenwriter Parviz Seyidli participated in the classes as guests.

During these classes, the authors engaged in dis-



*Pərviz Seyidli, Amin Orucov*

yeri, gənclərin inkişafında və formalaşmasında mütaliənin rolu, bədii əsərlərin dili, nəşriyyatların birgə təşkil elədiyi kitab marafonlarının əhəmiyyəti və s. mövzularda təqdim etdikləri məruzələr böyük marağla dinlənilib. Dərsdə gənclərin oxuduqları əsərlər barədə fikir mülahizəsi aparılıb və bu istiqamətdə faydalı tövsiyələr verilib. Sonra tələbələrin sualları cavablandırılıb və ən maraqlı sual müəlliflərinə kitab hədiyyələri təqdim olunub.

cussions on the significance of fiction in human life, the role of reading in the development and shaping of young minds, the language of fiction, and the importance of jointly organized book marathons by publishing houses. The audience showed keen interest in the reports presented on these topics. Opinions about literature read by young individuals were shared, and valuable recommendations were provided in this context. The session concluded with the authors addressing students' questions, and book gifts were awarded to those posing the most intriguing questions.

## “LAMANÇLI DON KIXOT” MÖVZUSUNDA AÇIQ DƏRS
## INTERACTIVE LESSON ON "DON QUIXOTE OF LA MANCHA"

Dekabrın 13-də Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin “İnteqrativ dərs” layihəsi çərçivəsində dil və ədəbiyyat müəllimliyi və filologiya ixtisası üzrə III kurs tələbələri üçün “Lamançlı Don Kixot” mövzusunda açıq dərs keçirilib.

Departamentin müəllimləri Qardaşxan Əzizxanlı və Ülvi Babasoy roman tarixində “Lamançlı Don Kixot”un rolundan, onun poetikasından, həyat və sənətdə doğurduğu suallardan söz açaraq, “saflığın və dürüstlüyün” kitabını yazan Servantesin özünəməxsus təhkiyəsindən danışıblar.

Onlar dünya ədəbiyyatında üstün yeri olan “Lamançlı Don Kixot”dan gətirdikləri konkret misallar əsasında “mətn içində mətn” texnikası sərgiləyən, hər abzasında bənzərsiz yumoristik, ironik, parodik deyimlər olan əsərin çoxsaylı özəl xüsusiyyətlərini qeyd ediblər.

Açıq dərs tələbələrin və mühazirəçilərin qarşılıqlı sual-cavabı ilə yekunlaşıb.

*AZƏRTAC* və digər saytlar tədbir haqqında xəbər yayımlayıblar.

On December 13, an interactive lesson centered on "Don Quixote of La Mancha" unfolded for third-year students enrolled in Language and Literature Education and Philology. This event was part of the "Integrative Lesson" initiative within the Department of Languages and Literatures at Khazar University.

During the session, discussions delved into the significance of "Don Quixote of La Mancha," exploring its poetics, the philosophical questions it poses in both life and art, and the distinctive inspiration embodied by Cervantes, the author who crafted the work with a focus on "purity and honesty."

Specific instances from "Don Quixote of La Mancha" were analyzed, highlighting its unique literary qualities, including the utilization of the "text within a text" technique and the incorporation of humorous, ironic, and parodic expressions in every paragraph. The interactive lesson concluded with a reciprocal question-and-answer session involving both students and instructors.

*AZERTAC* and other websites published news about the event.

***https://azertag.az/xeber/safligin_ve_durustluyun_kitabi_lamanchli_don_kixot-2848900 və s.***

## ÇİNİN HEBEİ İQTİSADİYYAT VƏ BİZNES UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI XƏZƏR UNİVERSİTETİNDƏ

## EMPLOYEES OF CHINA'S HEBEI UNIVERSITY OF ECONOMICS AND BUSINESS AT KHAZAR UNIVERSITY



Dekabrın 12-də Xəzər Universitetində Çin Hebei İqtisadiyyat və Biznes Universitetinin əməkdaşları ilə görüş keçirilib. Görüşdə Hebei İqtisadiyyat və Biznes Universitetinin vitse prezidenti Li Guijun, universitetin prezident aparatının direktoru Lyu Jianchun, Riyaziyyat və statistika fakültəsinin dekanı Liang Jianying, İnformasiya texnologiyaları fakültəsinin dekanı Sun Lihui və Beynəlxalq Mübadilə Mərkəzinin direktoru Shang Liwei, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, universitetin rektoru Dos. İradə Xəlilova, İqtisadiyyat və Menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin Elmi işlər üzrə dekan müavini Günel Bahəddinova, Riyaziyyat departamentinin müdiri Əli Hüseynli, Kompüter elmləri departamentinin müəllimi

On December 12, a gathering took place at Khazar University, hosting representatives from China's Hebei University of Economics and Business. The attendees included Li Guijun, Vice President of Hebei University of Economics and Business, Liu Jianchun, Director of the University's Presidential Office, Liang Jianying, Dean of the Faculty of Mathematics and Statistics, Sun Lihui, Dean of the Faculty of Information Technology, and Shang Liwei, Director of the International Exchange Center, Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees Prof. Acad. Hamlet Isakhanlı, Rector of the University Assoc. Prof. Irada Khalilova, Dean of the School of Economics and Management Jeyhun Mammadov, Dean of the Graduate School of Economics and Business Ingilab Ahmadov, Deputy Dean of Scientific Affairs of the Graduate School of Economics and Business Gunel Bahaddinova, Head of the Department of Mathematics Ali Huseynli, Lecturer of the Department of Computer Science Hafiz



Hafiz Məhəmməd Azim Əkrəm, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru Arzu Bədəlova iştirak ediblər.

Görüş prosesində Arzu Bədəlova və İnqilab Əhmədov tərəfindən Xəzər Universiteti və universitetin cari layihələri haqqında təqdimat nümayiş etdirilib. Universitetlər arasında müzakirə mövzusu isə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi olub.

Mahammad Azim Akram, International Relations Department head Fatima Valiyeva and coordinator Arzu Badalova.

During the meeting, Arzu Badalova and Inqilab Ahmadov delivered a presentation outlining Khazar University and its ongoing projects. The universities engaged in discussions about fostering mutual relations and collaboration.







# ПРАВО НА СЧАСТЬЕ

*Предлагаем нашим читателям интервью старшего преподавателя Департамента права Университета Хазар Акифа Ализаде, опубликованную в газете "Бакинский рабочий" 13 декабря 2023 г.*

**Акиф Ализаде: Наше общество до сих пор сохраняет традиции и консервативные взгляды на формирование семьи.**

Роль юридического анализа в семейном праве и семейных отношениях имеет решающее значение для обеспечения того, чтобы лица, участвующие в этих процессах, получали достоверную правовую информацию и справедливые решения.

Дела, связанные с семейным правом, часто затрагивают сложные юридические вопросы, а также человеческие чувства, а юридический анализ помогает обеспечить точное и последовательное применение закона в этих случаях. Нет никаких сомнений, что одним из ключевых аспектов юридического анализа семейного права и семейных отношений является правильная интерпретация законов и положения дел. Поэтому мы обратились к эксперту в сфере семейного права - члену Коллегии адвокатов Азербайджанской Республики, старшему преподавателю Юридического департамента Университета Хазар **Акифу Ализаде**, который в своем эксклюзивном интервью «БР» ответил на интересующие нас вопросы.

**- Акиф муаллим, за последние 20 лет в Азербайджане активизировалось строительство правового государства и Азербайджан добился более прогрессивных успехов в этой области. Однако независимо от эпохи общество всегда сохраняет гибкость и чувствительность. Считаете ли вы, что достаточно наших граждан, правильно понимающих взаимосвязь прав, свобод и обязанностей в азербайджанском обществе? И есть ли в стране в целом должный уровень юридического образования?**

- В первую очередь, должен подчеркнуть, что вы затрагиваете очень актуальную тему, за что хочу выразить благодарность вашей газете. Что касается вопроса, то однозначно ответить на него невозможно. Если я скажу, что значительная часть общества до сих пор неправильно понимает взаимосвязь наших прав, свобод и обязанностей, то это будет неправильно, наоборот, значительная часть понимает, но порой и в этом приходится сомневаться. Однако ситуация и уверенность в будущем обнадеживают. Потому что азербайджанское государство проводит необходимую работу в этой сфере и этот процесс расширяется. Мы также не можем утверждать, что юридическое образование в нашей стране находится на требуемом уровне. Считаю, что юридическое образование должно начинаться не столько со школы, сколько с дошкольных образовательных учреждений. Существуют десятки зарубежных опытов, подтверждающих

это мнение, и в качестве примера мы можем рассмотреть опыт цивилизованного общества Японии, Канады, Швейцарии и т.д. В этих странах дети в дошкольных учреждениях, по крайней мере, хорошо информированы о своих правах. Я думаю, нам не следует отказываться от такого опыта. Кроме того, нашим детям необходимо предоставлять предварительную информацию об их правах во всех средних школах нашей страны, начиная с начальных классов, а на более позднем этапе учащимся следует преподавать нашу Конституцию и местные и международные правила в области прав человека. Конституция и права человека должны быть внесены в учебные программы в качестве обязательного предмета по всем специальностям средне-профессионального образования, а также в средне-специальных и высших учебных заведениях. Правовое просвещение должно осуществляться регулярно не только в образовательных учреждениях, но и в СМИ, социальных сетях и на телевидении. В этом случае выиграет все общество в целом.

**-Вы, наверное, согласитесь со мной, что семейное право в нашей стране долгое время находилось вне фокуса внимания общества. Какие достижения вы можете отметить и какие работы ведутся в этой области?**

- Семейное право и его защита, конечно, находятся под защитой нашего государства. На мой взгляд, защита семейных прав должна быть обязанностью всего общества, а не только государства. Хочу подчеркнуть, что другие общества и страны могут как минимум позавидовать нам в отношении института семьи. То есть, к счастью, даже если есть небольшие огрехи и зарубежные подходы, ситуация в нашем обществе в этой сфере пока довольно неплохая. Отрадно, что наше общество до сих пор сохраняет традиции и консервативные взгляды на формирование семьи. Конечно, проблемы с созданием семьи и ее сохранением были всегда, и так будет и дальше, пока существует естественное общество. Вопрос в самом подходе к решению существующих проблем.

Общественные обсуждения и статистические показатели говорят о том, что по сравнению с предыдущими временами распадается больше семей и увеличивается количество разводов. Я думаю, это следует рассматривать как естественный процесс. В связи с тем, что у нас увеличивается население, увеличивается и количество браков, а если увеличивается количество браков, то и количество наблюдающихся разводов адекватно этому растет.

Дело в том, что сейчас инициаторов разводов женщины составляют подавляющее большинство. Это потому, что наши женщины уже не чувствуют себя бесправными, как в предыдущие годы, они знают свои права, хотят иметь равные права с мужчинами не только в обществе, но и дома, думаю, что правильно и делают. Это естественный процесс, общество развивается, женщина получает высшее образование, работает, не зависит от мужа материально, и в этом случае она не желает подчиняться старым патриархальным правилам. В результате мужчины или близкие родственники, не желающие смириться с ситуацией, создают конфликт в семье, и в итоге появляется известная статистика. Следует также учитывать, что по сравнению с предыдущими периодами официальные случаи с семьями без брака значительно сократились благодаря вмешательству самого общества и официальных институтов. Эту ситуацию также можно отнести и к ранним бракам. В настоящее время государственные органы разными способами серьезно борются с ранними браками, то есть браками несовершеннолетних и неофициальными браками, и могу сказать, что положительный результат достаточно ощутим. Кроме того, мы возлагаем большие надежды в сфере защиты семейных прав на создание и функционирование института медиации в нашей стране. Государственный комитет по проблемам семьи, женщин и детей, его центры, действующие в регионах, проводят эффективную работу по дальнейшему укреплению института семьи посредством различных просветительских мероприятий, защитных мер и т.д.

**-Какие на ваш взгляд пробелы имеются в законодательстве Азербайджана в сфере семейного права? Какие юридические инициативы лично вы хотели бы предпринять для их устранения, если таковые имеются?**

- Отечественное законодательство касательно семейных прав регулярно обновляется с учетом вызовов современности. Например, то, что медицинское освидетельствование обязательно при заключении брака, что споры, возникающие в семье, могут решаться путем медиации вплоть до судебного разбирательства и др. является тому явным свидетельством. Однако на протяжении многих лет создание Алиментного фонда, формируемого из государственного бюджета, что подвергалось публичному обсуждению, а также создание Суда по семейным делам или формирование корпуса судей, которые будут рассматривать в судах только семейные споры, специализация юристов по семейным правам и т.д. почему-то задерживается. Кроме того, преподавание семейного права в средних и высших учебных заведениях способствовало бы укреплению института семьи.

**-Иногда в силу объективных и субъективных причин, а иногда в результате влияния техногенной цивилизации в последнее время наблюдаются случаи психических расстройств во время внутрисемейных конфликтов. Мы видим это не только в статистических данных профильных учреждений, но и, к сожалению, на экранах телевизоров и во многих ток-шоу. Вообще, насколько корректно оглашение таких дел с юридической точки зрения? Мы хотели бы, чтобы вы проинформировали нас о правовых мерах, принятых в этом отношении.**

- Я категорически против вынесения семейных споров и конфликтов на публичное обсуждение, непрофессионалов в этой области, дающих рекомендации как «эксперты» или доносящих до общества ложные мнения. На мой взгляд, это имеет противоположный эффект. Я также считаю, что это противоречит устоявшимся и консервативным традициям азербайджанской семьи. На самом деле все случаи, о которых вы упомянули, по большей части индивидуальны. Семейные традиции нашего народа – лучшие из лучших как в мусульманских обществах, так и в других цивилизациях. Конечно, у нас были, есть и будут индивидуальные, а иногда и общие проблемы. Однако пропаганда таких конфликтов означает, что таких случаев много и они в нашей стране глобальны. На самом деле это не так. Если вдуматься, то мы увидим, что больше всего конфликтов возникает в тех семьях и выносят это на общественное обсуждение, семьи, члены которых менее образованные, не имеющие мировоззрения и еще очень отсталые в своих социальных взглядах. Возвращаясь к своему прежнему мнению, я считаю, что мы должны сделать так, чтобы дети, которые являются нашим будущим, со школьных лет были более образованы в области семьи и прав человека, создавали семью на основе существующих у нас обычаев и традиций, установленных правил, а не с информацией, которую они получают из интернет-ресурсов или социальных сетей, и я уверен, что большинство так и делает. Вы не увидите, чтобы такие дебаты обсуждались по телевидению или в других аудиториях в странах запада или востока, где общественное мнение и взгляды более продвинуты. Я уверен, что у нас нет социального запроса на подобные дискуссии. Подобные дискуссии не являются ни юридическими, ни морально правильными, и я уверен, что по мере развития нашего общества, такие дискуссии полностью исчезнут с телевизионных эфиров.

**- С какими трудностями больше всего сталкиваются молодые люди, желающие создать семью?**

- Наиболее распространенные трудности, с которыми сталкиваются молодые люди, желающие создать семью, носят социально ориентированный характер, прежде всего безработица и отсутствие собственного жилья. Существует также обратная корреляция между финансовым положением человека и выполнением работы, необходимой для создания семьи. Но это выглядит не так очевидно. Основная проблема – безработица и отсутствие жилья, а также недостаточность льгот в сфере трудовых прав работающей матери. На мой взгляд, было бы лучше, если бы правительство увеличило социально-экономическую и правовую поддержку людей, желающих создать семью или молодых семей. Например, мы могли бы продвинуться в этой сфере, если предоставили бы работающей женщине, родившей ребенка, более длительный оплачиваемый отпуск, а после декретного отпуска, учитывая возраст

ребенка, до 5 часов рабочего времени и т.д. По наблюдениям, государственная программа социального жилья для молодых семей не всем доступна. Она должна быть расширена и реализована не только в Баку, но и в регионах. Кроме того, предоставление беспроцентных или низкопроцентных кредитов молодым людям, желающих создать семью для первоначальных приготовлений очень помогло бы решить проблему. Кроме того, решению проблемы также поможет создание рабочих мест, новых фабрик и заводов в регионах, чтобы молодежь могла остаться и работать в в родных краях.

**- Какие правовые инструменты используются для устранения или смягчения этих трудностей?**

- Хотя проблема безработицы существует во всех странах, в большей степени она проявляется в регионах нашей страны. Я считаю, что молодой человек, окончивший среднюю, техническую или высшую школу, должен быть уверен, что он не останется безработным и, работая, принесет пользу и себе, и своей семье, и обществу. Сделав банковские кредиты более доступными и предоставив больше привилегий частному бизнесу, мы способствуем развитию предпринимательства в регионах, как следствие, созданию новых рабочих мест и трудоустройству молодежи. Если молодежь, которая работает и получает доход, окружена заботой в решении жилищного вопроса, то, конечно, количество молодых людей, создающих семьи, будет больше, они не будут расселяться по ближним и дальним странам в поисках заработка. Если молодые люди, которые работают и получают доход, будут окружены и заботой в решении жилищного вопроса, то конечно, количество молодых людей, создающих семьи, станет больше, и никто из них не поедует в другие страны и не поселятся там.

Решению жилищного вопроса молодых семей помогают механизмы, предусмотренные Указом Президента Азербайджанской Республики «О создании механизма сдачи в аренду жилых помещений с обязательством последующей продажи» от 25 января 2019 года.

**- Акиф муаллим, у Вас достаточный профессиональный и педагогический опыт работы в юридической сфере. Исходя из этого опыта, какие положительные и отрицательные тенденции в обществе вы можете выделить? Знаете, с какими из них нужно бороться на правовом уровне?**

- Несмотря на то, что цифровое развитие, информационные технологии, интернет-ресурсы доступны каждому на работе и дома, дети и молодые люди более склонны к изучению иностранных языков, а их усилия по получению высшего образования в более развитых странах являются положительными тенденциями, в основном, как негативную ситуацию, я бы оценил тот факт, что дети и молодежь проводят больше времени в социальных сетях, почти в зависимости от этого. Я думаю, что нам как обществу еще многое предстоит сделать для искоренения такой зависимости.

Судя по всему, в последние годы участились случаи распространения вредных привычек среди детей и молодежи через Интернет, а также воздействия на детей с преступными наклонностями и злым умыслом, а затем использования их в своих грязных целях. Действительно, соответствующие органы власти неустанно борются с подобными угрозами, и результаты налицо. Думаю, как цивилизованное общество мы должны защищать наших детей и молодых людей от «плохой» стороны Интернета.

**-Благодарю за беседу.**

**Абульфаз Бабазаде**

*https://br.az/society/68153/pravo-na-schaste/*



# XOŞBƏXTLİK ARZULAYIRAM HAMINIZA!

**İsaxan müəllim,**

Xoşbəxtlik arzulayıram hamınıza!

Söz vermişdim ki, daha sizləri narahat etməyəcəm, amma bacarmadım. Yenə söz verirəm, daha narahat etməyəcəm...

İki il öncə bir nəfərin (sizin qonşunuz Mehman həkim) maşınında Tbilisidən gəlirdim. O, mənə bir sual verdi – Əşrəf əmi, 80 yaşı çoxdan keçibsiniz, qocalıq haqda nə deyə bilərsiniz? Mən fikirləşmədən dedim ki, qocalıq haqda demişəm, amma heç kəs dediyimi təkrar etmir, etmək istəmir, nə qocalar, nə də cavanlar. Ona görə deməyimin mənası yoxdur. Sən dediyimi deyəcəksənsə, deyim. Deyəcəm – dedi o. "Qocalıq xəcalətlikdir" – demişəm, qorxma, yeri gələndə de, heç kəsdən çəkinmə.

– Yox, yox! deyə bilmərəm – dedi o.

İsaxan müəllim, qocalıq xətrinə inciməyin məndən.

"Təsadüflər"i oxuyun, əgər sizə bir balaca xoş gəlsə və əsəblərinizi azacıq sakitləşdirsə, mənim üçün xoş olar.

Alman dramaturqu Lessinq yazır: "Əgər Allah gizli bir işarə ilə bildirsəydi ki, onun sağ ovucunda həqiqət, sol ovucunda həqiqətin axtarışıdır, mən həqiqətin özünü deyil, onun sol ovucunda olanı, yəni həqiqətin axtarışını götürmək istərdim".

Sizlər həmişə axtarışdasınız! Uğurlar diləyirəm sizlərə! Salamat olun, mənim əzizlərim!

## Unudulmaz təsadüflər

Bu yaxınlarda bir nəfərin fikir ifadəsindən oxudum ki, guya həyatda təsadüflər yoxdur. Onunla razılaşa bilmirəm. Mənim həyatımda bir neçə qeyri-adi təsadüflər olub.

Birinci təsadüf: 1964-cü il 2 may, təxminən saat 11-12 olardı. Bayramsayağı, səliqəli geyinmişdim (o zaman bayramlarda geyimə xüsusi fikir verilirdi). Atam evi bərabərində şosse yolunun kənarında təkcə dururdum. Sovxozun binası tərəfdə duranların sayı çox idi, hamı kom-kom durub söhbət edirdilər. Mən də ora getmək istəyirdim, ancaq gördüm qabaqda bir minik maşını, arxada isə "ZİM" maşınına bənzəyən bir maşın sürətlə gəlir. Dayandım və onların gəlib getməsini gözlədim. Qabaqda gələn yanımdan keçdi, arxada gələn maşın isə mənim bərabərimdə dayandı. Qabaqda gedən maşın da dayandı və geri verdi, iki nəfər yerə düşdü. "ZİM"ə oxşayan maşının sağ arxa qapısının aynası aşağı endi. Gözlərimə inanmadım, Mjavanadze Vasili Pavloviç – Gürcüstan Komminist Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi, Sov.İKP MK Siyasi bürosunun üzvlüyünə namizəd. O, - с праздником - dedi.

– Большое спасибо, Василий Павлович!
– Ты узнал меня!?
– А кто Вас не знает Василий Павлович, ведь вес мир знает Вас.
– Что за плиты разбросано вдоль дороги?
– В эту канаву укладывать будут.
– Когда закончат?
– Наверное за недели, или за десять дней.
– Ну пока...
– Счастливо Вам.

Maşınlar sürətlə tərpəndilər – sonradan məlum oldu ki, o "Qarayazı" meşə qoruğuna gedirmiş.

Bu vaxt Binnət əmimlə qardaşım Süleyman (Bakı Ali Partiya Məktəbində oxuyurdu, 1-2 gün olardı ki, Bakıdan gəlmişdi) yanıma gəldilər. Süleyman soruşdu ki, kim idi o maşındakılar. Dedim ki, Mjavanadze idi. Burax zarafatını, – dedi o. Vallah, dedim Mjavanadze idi və nə dediyini danışdım.

Evə axşam qayıtdım, kefim duru idi. Dedilər ki, sovxoz ditektoru Görgü (Devdariani Georgi Mixailoviç) səni axtarır və qənsələrdə səni gözləyir. Getdim onun yanına və olan kimi də danışdım. O, qəzəbləndi ki, biz onu on günə arxa necə düzə bilərik, təsəvvür edirsənmi, danışdığını bilirsənmi? Mən dedim – heç düzmə, mən kiməm ki, məndən soruşursan. O yenə hirsləndi və - sən Mjavanadzeyə deyibsən axı...

Unutmuşam (mən o zaman sovxozda işləmirdim) neçə günəsə tələm-tələsik o plitələri şosse yolunun kənarı ilə gedən arxın içərisində düzübləṙ...

Mənim üçün heç unudulmayan, xoş bir təsadüf. 1964-cü il idi. Məni Rustavi Metallurgiya Zavodunda trubaprokat sexində işə götürdülər və elə orada da idman cəmiyyətinə üzv oldum. O sexdə işləmirdim, necə deyərlər, eləcə "oformut" eləmişdilər – idman cəmiyyətinin xahişi ilə. Əsas iş yerim başqa yerdə idi. Tbilisi şəhərində, yenicə tikilmiş (1962) böyük idman sarayında məşhur dünya güləşçilərinin (sərbəst güləş üzrə) görüşü keçiriləcəkdi. Metalurgiya zavodundan mənə də bilet verdilər. Çox xahişdən (xahişim yalvarmağa bənzəyirdi) sonra bir dənə də ala bildim. Yadımdadır, yerimiz 12-ci seksiyada idi, arena əla görsənirdi. Mən evli deyildim, amma nişanlım var idi. Onun qardaşı Məhəmmədi özümlə götürdüm, onun 11 yaşı vardı. Yarışlar haqqında yazmayacam. Məqsədim başqadır.

Yarışın 2-ci günü idi. Fikirləşdim, görəsən, Əli Əliyevlə (7 dəfə dünya çempionu) görüşə bilərəmmi? Güləşçilərin yerləşdiyi salonun yerini öyrəndim və Rustavi idman cəmiyyətindən verilmiş vəsiqənin köməyi ilə Əli Əliyevlə görüş üçün icazə ala bildim. Məhəmməd də yanımda idi. İçəri girdik, Əli Əliyevlə salamlaşdıq, qucaqlaşdıq, öpüşdük. Məhəmmədi kiçik qardaşım bilib onunla əl tutdu. Orada Balavadzeni və Aleksandr Medvedi də gendən gördüm.

Üçüncü təsadüf: 1967-ci il idi. Baksovetin yanında, daha doğrusu, metronun arxasında öz-özünə xidmət etməklə yüngül yeməkxana vardı. Mən sini götürüb özüm üçün lazım bildiyim yeməkləri götürdüm, pulunu ödəyib (1 man.75 qəpik) boş masanın birinin arxasında oturdum. Bir nəfər də sinidə olan yeməklə oturduğum masaya yaxınlaşdı, icazə ilə oturdu və geyimimə və davranışıma diqqət edərək soruşdu:
– Deyəsən buralı deyilsən?
– Gürcüstandanam.
– Oxuyursanmı?
– Yox, qəbula gəlmişəm – qiyabi.
– Mənim də qızım qəbul olmaq istəyir.
– Allah kömək olsun!
– Sağ ol. Məni tanımadın, deyəsən.
– Yox, tanımadım.
– Habil Əliyevəm, kamança çalan.
– Çox gözəl, yenə də uğurlar diləyirəm sizlərə, dedim və qalxdım.

Yenə bir təsadüf: 1968-ci il. Bakıya gedirdim. Birinci kurs imtahan sessiyası idi (Xalq Təsərrüfatı İnstitutu). Qardaban vağzalında qarşımda duran kupe vaqonuna qalxdım. Bələdçidən bir yer istədim. Yoxdu – dedi. Başqa vaqona keçmək istəyəndə o, məni saxladı və dedi – bu vaqonda bir kupedə iki nəfər – bir qadın, bir kişi gedir, amma dörd yerə də biletləri var. Tiflisdə, bunları yola salan gürcülər çox ciddi tapşırdılar ki, onların kupesinə başqa adam buraxmayım, mən də söz verdim. Gör indi nə edirsən, bəlkə sən özün xahiş edəsən onlardan. Mən xeyli tərəddüd etdim, sonra nəsə qapılarını açdım və – axşamınız xeyir olsun – dedim. Olarmı, sizinlə bərabər bu kupedə yerləşim... Sözümü tam qurtarmamış qadın – yox, olmaz! – dedi. Bağışlayın, deyib qapını çəkib örtdüm. Kişi qapını açdı və mənə – hara gedirsən? Bakıya, dedim. Gəl, dedi. Yüngül bağlamam vardı, aşağıya qoyub, qadın tərəfdə qapının yanında sıxışıb oturdum. Çox sağ olun – dedim (kişiyə müraciətlə). Kişi polkanın ortasında oturub əllərini də aralı döşəkçəyə söykəmişdi, elə bil şəkil çəkdirməyə hazırlaşırdı. Xeyli müddət onun dalbadal verdiyi sualları cavablandırdım. Və birdən qeyri-adi bir sual verdi: – Görürəm bəzi şeylərdən az-çox xəbərin var, məni tanıyırsanmı? Dedi və əlavə etdi, mən Barataşvilinin anadan

olmasının 150 illik yubileyindən gəlirəm (Mən Barataşvilinin gürcü şairi olduğumu bilirdim). O sualdan sonra ona təfərincnən (diqqətlə) baxdım və – Leninqrad göylərində – dedim və sevinmiş – siz Məmməd Rahimsiniz. Mən oturuşumu düzəltdim, qadınsa gülümsədi və nəzərə çarpacaq dərəcədə yerində qurcalandı.

İndi müraciət etmək istəyirəm, bilmirəm nə deyim – Məmməd müəllim, yoxsa Rahim müəllim. Düşündüm ki, bütün yazıçıların, şairlərin adı əvvəl yazılır, deməli bu da istisna deyil – Məmməd müəllim! Söhbət əsnasında yadına düşmüş kimi dedi – birdən kandoktura pul verərsən, pul-zad vermə. Bu tapşırıqla məni pis vəziyyətə saldı... Öz maraqları üçün məni saysız-hesabsız sualları ilə yaman günə qoymuşdu. Ən çox gürcülərlə bizim qarşılıqlı münasibətimiz maraqlandırırdı onu.

Sərnişinlər yatmağa hazırlaşırdılar. Bələdçi bizim yataq dəstlərini gətirdi. Mən kupedən çıxdım və bir saata qədər itdim. Gəldim ki, qadın yerində yığnalıb, amma Məmməd Rahim açılmış yatacaq üstündə hələ də oturur. Mən onun yanında oturası oldum. Peşman olmuşdum onlarla bir yerdə getdiyimə, istədiyim kimi hərəkət edə birmirdim. Özümü asudə aparmaq üçün ondan soruşdum: Məmməd müəllim, yubileydə siz çıxış etdinizmi? Xeyli vaxt cavab vermədi, və sonra: – Mənim çıxışım gürcülər üçün unudulmaz çıxış olacaq. Çıxışımı bilirsən nə ilə bitirdim: – Gürcü xalqı yalnız Barataşvili və yazıçıları, şairləri sadalayandan sonra bir balaca fasilə verdim – həm də böyük Stalin kimi oğul yetirib. O zaman qadağa qoyulmuş adı ilk olaraq mən çəkdim. Bilirsən nə oldu... az qaldı ki, kürsüdən məni əllərində yerimə endirsinlər.

Mən soruşdum: bəs Stalinin adını çəkməyə qorxmadınızmı? O, bilmirəm, – dedi. Mən paltarlarımı soyunmadan yerimə qalxdım. Səhərə qədər yata bilmədim. Səhər tezdən yenidən onların gözündən uzaqlaşdım. Biləcəridə içəri girdim. Sükutu mən pozdum: Məmməd müəllim, olarmı sizdən bir şey soruşum? Soruş, dedi. Deyilənlərə görə, Şıxəli Qurbanovun ölümü qəsddi, eləmi? O cavab verənə qədər qadın dedi: – Bərxananı hazırla, Bakıya çatırıq. Sonra Məmməd Rahim dilləndi: Allah rəhmət eləsin Şıxəli Qurbanova. O öz əcəli ilə dünyasını dəyişdi. Yeri gəlmişkən, Ş.Qurbanovun "Sənsiz" dramına bilet ala bilmişdim. Afişada qırmızı hərflərlə "Sənsiz" yazılmışdı, təxirə salındı və sonra qara hərflərlə "Sənsiz" yazıldı və onsuz "Sənsiz"ə baxdıq.

Qatar vağzalda dayandı. Onları cavan oğlanlar (uşaqlar da demək olar) qarşıladılar. Yəqin ki, onlar bunu unutmamış olarlar. Məmməd Rahim mənimlə çox xoş xudahafizləşdi və dedi: işin düşərsə, utanma, görürəm utancaqsan, gəl yanıma. Məni sən asanca taparsan... Ondan sonra mən onu görmədim.

Həyatımda olan ən qüssəli təsadüf, qəmli, kövrək görüş... Yəqin ki, 1977-ci il olardı. Mən sovxozda partiya komitəsinin katibi (partkom) idim. Eşitdim ki, Qazaxdan kəndimizə bir nəfər "S-80" traktoruna ehtiyat hissəsi almaq üçün gəlib. Onunla bərabər şair Hüseyn Arif də gəlib. Məni maraq götürdü: "S-80" traktoru hara, şair hara??? "S-80" traktoru çox nəhəng traktor idi, yola-izə sığan deyildi. Sovxozda bircə dənə idi, onu da yalnız "Дядёх" Hümbət idarə etdi. O dünyadan köçəndə "S-80" də yerli-dibli itib batdı. Öyrəndim ki, Hüseyn Arif mexaniklə elə belə gəlib, onlar deyəsən yaxın qohum olublar. Mən işdən aralanası oldum və Hüseyn Ariflə süfrə arxasında oturası oldum. O zaman "Azərbaycan" jurnalını abunəçi kimi alırdıq. Onun şeirləri o jurnalda dərc olunurdu. Onun seirlərindən mən misallar gətirirdim ki, ürəklənsin, sevinsin. O araq içirdi, amma yemək yeməyi elə-belə, kasad idi. Cürbəcür yeməklərlə onu iştaha gətirə bilmədik, necə deyərlər, hər şeydən bir çimdik qoparırdı... Onun oğlu Arifin həyatını faciəli şəkildə itirdiyini bilirdim və çalışırdım ki, söhbətlərdə oğul-uşaq kəlməsi işlədilməsin. Alınmadı, o ayağa qalxdı, döş cibindən bir şəkil çıxartdı və mənə uzatdı – oxu, gör arxasına nə yazmışam, hiss edirdim bədbəxtliyi, nəsə olacağını, hər şeyi ona qısqanırdım, mebeli də, maşını da, nə bilim hər şeyi, hər şeyi...

Mən əvvəlcə şəkilə baxdım, cavan oğlan, ayaqüstə, gülümsəmiş formada. Arxasını çevirdim – ikicə sətir yazı, təxminən belə idi: üzündəki təbəssüm əbədi olaraq qalacaq, ya da əbədi olaraq qalacaqmı? Mən şəkili ona qaytardım (gərək qaytarmayaydım). O şəkilə baxa-baxa, elə bil öz-özünə, mən səni hansı əziyyətlərlə, komsomol ruhunda böyütmüşdüm dedi və ağladı. Sakitləşə bilmirdi, birdən burnundan qan açıldı... Səliqə-səhmandan sonra onu çarpayıya uzatdıq. Bir azdan sonra o dedi – bilirəm sizin kəndinizdə yaxşı aşıqlar var, yaxında olanı varsa, çağıra bilərsinizmi? Aşıq Aslanı gətirə bildik. O dedi: – Aşıq, elə şey oxu, mən eşitməmiş olum. Aşıq Aslan – baş üstə dedi – və çox qəşəng avazla, səslə oxudu və sonda – "Aşıq Alxan deyər" deyəndə o sakitcə dedi – bax burasını eşitməmişdim. Sonra aşıq Aslandan sazını istədi, arxasını yastığa söykədi və çox təsirli olan Ruhani (Urfani) aşıq havasını məharətlə ifa etdi...

"S-80" traktoru üçün lazım olan ehtiyat hissəsi düzəldildi və onlar Qazaxa yola salındı. Dəmir-dümürdən başqa pay qoymağı da unutmadıq. Onlar "villis" deyilən Qaz-69 markalı maşınla gəlmişdilər.

Hüseyn Arif məni evinə dəvət etdi. Söz verdim, ancaq getmədim. İndi getmədiyimə peşmanam...

**A.Əşrəf**

*15.12.2023*

# XƏZƏR UNİVERSİTETİNƏ QƏBUL OLMAQ BÖYÜK ŞƏRƏFDİR

# ACHIEVING ADMISSION TO KHAZAR UNIVERSITY IS A GREAT HONOR




*Abdulla Jawad Alawalla*

Mən Abdulla Jawad Alawalla, idarəetmə ixtisası üzrə 1-ci kurs tələbəsiyəm. Xəzər Universitetinə qəbul olmaq böyük şərəfdir. Məni universitetin müxtəlif akademik proqramları, tədqiqata verdiyi önəm cəlb etdi.

“Xəzər”dəki zəngin mədəni müxtəliflik mühiti universitetin güclü akademik proqramları ilə birlikdə şəxsi və intellektual inkişaf üçün maraqlı platforma yaradır. Tələbə mübadilə proqramlarında fəal iştirak edərək, mentorlardan məsləhət alaraq və özümü yerli icmaya inteqrasiya ilə Xəzər Universitetindəki mədəni və akademik mühitə uyğunlaşmağı planlaşdırıram. Bundan əlavə, mən açıq fikirli olmağı, müxtəlifliyi qəbul etməyi, akademik resurslarla fəal şəkildə məşğul olmağı nəzərdə tuturam. Akademik cəhətdən üstün olmağa, tədqiqat təşəbbüslərinə fəal qoşulmağa çalışıram. Bundan əlavə, mən karyera məqsədlərimə uyğun gələn praktiki bacarıqları inkişaf etdirməyi hədəfləyirəm.

Hazırda Xəzər Universitetində əcnəbi tələbələr üçün dəstək xidmətləri ilə bağlı mövcud məlumatlarla tanış olmuşam. Bu resurslardan istifadə etməyi səbrsizliklə gözləyirəm.

I am Abdulla Jawad Alawalla, a first-year student studying management. Being accepted into Khazar University is an esteemed privilege for me. I was drawn to the university due to its diverse academic programs and its focus on research.

The diverse cultural atmosphere at Khazar University, coupled with its robust academic offerings, provides an inspiring platform for both personal and intellectual growth. My plan involves actively participating in student exchange initiatives, seeking guidance from mentors, and immersing myself in the local community to adapt to the cultural and academic setting. Additionally, I aim to foster an open-minded attitude, embrace diversity, and engage proactively with academic resources. My goal is to excel academically and actively contribute to research projects, developing practical skills aligned with my career aspirations.

I have thoroughly examined the available support services for international students at Khazar University, and I am eager to utilize these resources.



Rəşad Əliyev



## "EduCompany" KURSUNUN DİNLƏYİCİLƏRİ VƏ MÜƏLLİM KOLLEKTİVİ İLƏ GÖRÜŞ

## GATHERING WITH STUDENTS AND TEACHING STAFF OF "EduCompany" COURSE

Dekabrın 14-də Xəzər Universitetində "EduCompany" kursunun dinləyiciləri və müəllim kollektivi ilə görüş keçirilmişdir. Universitetin əməkdaşı Ülvi Babasoy giriş sözü ilə qonaqları salamlamış, Xəzər Universiteti haqda təqdimatla çıxış etmişdir.

Universitetin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova vaxtın idarə edilməsi, imtahan prosesində həyəcanın aradan qaldırılması və səmərəli çalışma metodları ilə bağlı seminar keçirmiş və abituriyentlərin suallarını cavablandırmışdır. Sonda "EduCompany" kurslarının Elmlər filialının rəhbəri Rəşad Əliyev çıxış etmişdir.

On December 14, a gathering took pkace with the students and teaching staff of the "EduCompany" course at Khazar University. Ulvi Babasoy, a staff member at the university, welcomed the attendees with an introductory remark and delivered a presentation about Khazar University.

Malak Karimova, the coordinator of the Psychology Department at the university, conducted a seminar covering topics such as time management, alleviating anxiety during exams, and effective study methods. She also addressed questions from the participants. To conclude the session, Rashad Aliyev, the head of the Science branch at "EduCompany" courses, shared insights.





## “PSYCHOCLUB”-UN “ZEHNİ TƏLİMLƏNDİRMƏK” TƏLİMİ

Dekabrın 14-də Xəzər Universitetinin Psixologiya departamenti və psixologiya ixtisası üzrə təhsil alan tələbələri tərəfindən könüllülük əsasında birgə təsis edilmiş “PsychoClub”-un “Zehni təlimləndirmək” adlı təlimi keçirilib. 20 nəfərdən çox tələbənin iştirak etdiyi təlimi Boğaziçi Universitetini (Türkiyə) fərqlənmə ilə bitirmiş və Standford Universiteti (ABŞ) CCT (Compassion Cultivation) Proqramının məzunu Sevinc Əliyeva aparıb.

Təlimdə "mindfulness" ilə bağlı Harvard Universiteti (ABŞ) tərəfindən aparılmış tədqiqatın nəticələri paylaşılmış və müzakirə edilmişdir. İnteraktiv müzakirələr və individual təfəkkür prinsipi əsasında aparılan təlimdə "zehin müşahidəsi" və "yemək meditasiyası" ilə bağlı praktiki çalışmalar nümayiş olunub.

## “MIND TRAINING" SESSION BY "PSYCHOCLUB”

Department of Khazar University, along with psychology students, organized the "PsychoClub" training session based on voluntary participation. Sevinj Aliyeva, an honors graduate from Boğaziçi University (Turkey) and a CCT (Compassion Cultivation) Program graduate at Stanford University (USA), led the training attended by over 20 students.

During the session, insights from Harvard University's research on "mindfulness" were shared and discussed. The training, emphasizing interactive discussions and individual reflection, included practical exercises on "mind observation" and "food meditation."

## SOSİAL-MƏDƏNİ ANTROPOLOGİYA İLƏ BAĞLI MÜHAZİRƏ

Dekabrın 16-da Xəzər Universitetində AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Antropologiya Mərkəzinin rəhbəri, antropologiya elmləri doktoru, professor Əliağa Məmmədlinin “Şahdağın etnomədəni cəmiyyətləri: keçmiş ilə gələcək arasında" adlı mühazirəsi dinlənilib. Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə keçirilən tədbirdə departamentin müəllimləri - tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədov, Orxan Zamanov, Ülviyyə Səfərova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin “Tarix müəllimliyi” və “Tarix-Coğrafiya” ixtisasında təhsil alan I kurs tələbələri, eləcə də mövzu ilə maraqlanan qonaqlar iştirak ediblər.

Etnik qrupların öyrənilməsi sosial-mədəni antropologiyanın ən mühüm istiqamətlərindən biri olduğu üçün mühazirə və müzakirələr əhəmiyyətli olmuşdur.

## LECTURE ON SOCIO-CULTURAL ANTHROPOLOGY

On December 16, Professor Aliagha Mammadli, the head of the Anthropology Center at the ANAS Institute of Archaeology, Ethnography, and Anthropology, delivered a lecture titled "Ethnocultural Societies of Shahdag: Bridging the Past and Future." The Department of History and Archaeology organized the event, with participation from department teachers, including Yagub Mammadov, a Doctor of Philosophy in History, Orkhan Zamanov, Ulviyya Safarova, and first-year students from the Faculty of Humanities, Education, and Social Sciences specializing in "Teaching History" and "History-Geography," along with other guests interested in the topic.

Since the exploration of ethnic groups stands as a crucial aspect of socio-cultural anthropology, the lecture and ensuing discussions held significant importance.

# XƏZƏR UNİVERSİTETİNİN PSİXOLOGİYA DEPARTAMENTİNİN TƏŞƏBBÜSÜ İLƏ "YARADICI PSİXOLOGİYA SİMPOZİUMU" KEÇİRİLİB




# "CREATIVE PSYCHOLOGY SYMPOSIUM" HELD AT KHAZAR UNIVERSITY'S PSYCHOLOGY DEPARTMENT INITIATIVE

Dekabrın 15-16-da Xəzər Universitetinin Psixologiya departamentinin təşəbbüsü və Fullbright Scholarship müəllimi Dr. Elnur Gajıyevin rəhbərliyi ilə "Yaradıcı psixologiya simpoziumu" keçirilib. Simpoziumun keçirilməsində əsas məqsəd yaradıcı terapevtik yanaşmalara artan tələbat və Azərbaycanda bu mövzu ilə bağlı elmi praktiki tədbirin təşkili, bu terapiya sahəsinə marağın daha da artırılması və daha geniş əhali kütləsini maarifləndirmək olub.

İki gün davam edən simpoziumun ilk günü İçərişəhərdə yerləşən "Passage 1901" ünvanında baş tutub və 4 sessiyadan ibarət təşkil olunub. Bu sessiyalarda yaradıcı terapiyalar və onların növləri ilə əlaqədar elmi və praktiki çalışmalar nümayiş etdirilib.

Simpoziumum açılışı zamanı yaradıcı terapiyaların ümumi effektivliyi, tətbiqi və elmi əsasları barədə Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova məruzə edib. ABŞ-ın Azər-

On December 15-16, a "Creative psychology symposium" was held under the initiative of Khazar University's Psychology Department and led by Fullbright Scholarship teacher Dr. Elnur Gajiyev. The primary objective of the symposium was to address the growing demand for creative therapeutic approaches, organize a scientific and practical event in Azerbaijan, and foster broader interest and education in this therapy field.

The first day of the two-day symposium took place at "Passage 1901" in Icherisheher and comprised four sessions featuring scientific and practical studies on various creative therapies.

During the symposium's opening, Malak Karimova, the coordinator of Khazar University's Psychology Department, presented a report on the overall effectiveness, application, and scientific basis of creative therapies. Stefan Gais, Head of the Public Relations Department at the US Embassy

baycandakı səfirliyinin İctimai əlaqələr şöbəsinin müdiri Stefan Qays çıxışında Fullbright proqramının və Azərbaycanda fərqli formatda təşkil edilən bu simpoziumun əhəmiyyətini qeyd edib.

Azərbaycan İncəsənət Birliyinin üzvü, tibb üzrə fəlsəfə doktoru Mehriban Şəmsəddinskaya "Metoforik portret" mövzusu ilə məruzə edib. Azərbaycanın incəsənət xadimi Səbinə Şıxlinskaya "Kollektiv mənlik" mövzusu barədə fikirlərini iştirakçılarla bölüşüb.

Sessiyanın davamında klinik psixoloq Dr. Elnur Gajıyev poeziya terapiyasının önəmini və effektivliyini vurğulayaraq, bu sahədə praktik nümunələri diqqətə çatdırıb.

Son sessiyada panel müzakirəsi təqdim edilərək, iştirakçıların interaktiv çıxışı dinlənilib. Bununla yanaşı, simpoziumda iştirak edən iştirakçılar rəsm əsərləri çəkərək öz sənət bacarıqlarını nümayiş etdiriblər. "Kollektiv mənlik" anlayışını ifadə edən və hamının iştirakı ilə yaradılan rəsm əsəri də simpoziumda iştirakçıların böyük marağına səbəb olub.

Simpoziumun ikinci hissəsi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşkilatçılığı ilə yaradılmış "Nine Sense" Yaradıcılıq Mərkəzində keçirilib. 3 sessiyadan ibarət olan bu hissədə ilk olaraq yoqa müəllimi, təlimçi Qafar Qənizadə yoqa və onun faydalarından bəhs edərək, onun insan psixologiyasına təsiri barədə məlumat verib. Sonra iştirakçılarla birlikdə yoqa təlimi aparılıb. Səs terapisti, musiqiçi, "Om Shri" studiyasının təsisçisi İlhamə Babayeva musiqi və səs terapiyasının əsaslarını iştirakçılara izah edib. Səs və musiqi terapiyasının ruh və bədən sağlamlığına faydaları müzakirə olunub.

Simpoziumun davam edən növbəti sessiyalarında "DanceAbilty Azerbaijan" təsisçisi Nigar Soltanova rəqs terapiyasının psixi, fiziki və zehni faydaları barədə mülahizələrini bölüşərək, inklüzivliyi anlamağımızda hərəkət terapiyasının əhəmiyyətini praktiki çalışmalar yolu ilə nümayiş etdirib. Psixoloq Günel Muradova ümumi davranışsal aktivliyin önəminə diqqət çəkərək, hərəkət və fiziki aktivliyin bilavasitə psixi sağlamlıqla əlaqəli olduğunu söyləyib.

Tədbirin sonunda təqdim olunan hərəkət və rəqs performansları iştirakçıların böyük marağına səbəb olub. Simpoziumun sonunda könüllülərə və iştirakçılara sertifikatlar təqdim olunub.

"Yaradıcı psixologiya simpoziumu" içtimai maraq doğurub və mətbuat səhifələrində işıqlandırılıb.

in Azerbaijan, emphasized the significance of the Fulbright program and the unique format of this symposium in Azerbaijan.

Member of the Azerbaijan Art Union, PhD in medicine Mehriban Shamsaddinskaya made a report on "Metophoric portrait". Azerbaijani art worker Sabina Shikhlinskaya shared her thoughts on the theme of " Collective self " with the participants.

In the continuation of the session, clinical psychologist Dr. Elnur Gajiyev emphasized the importance and effectiveness of poetry therapy and brought to the attention practical examples in this field.

During the final session, participants engaged in panel discussions and delivered interactive speeches. Furthermore, attendees showcased their artistic abilities by creating paintings. The collaborative painting, reflecting the concept of "Collective self," garnered significant interest among symposium participants.

The second part of the symposium was held at the "Nine Sense" Creative Center organized by the Vice President of the Heydar Aliyev Foundation, Leyla Aliyeva. In this part, consisting of 3 sessions, yoga teacher Gafar Ganizade elucidated the benefits of yoga and its impact on human psychology, followed by practical yoga training. Ilhama Babayeva, a sound therapist and founder of the "Om Shri" studio, provided insights into music and sound therapy, discussing their advantages for mental and physical well-being.

The following sessions of the symposium featured Nigar Soltanova, founder of "DanceAbility Azerbaijan," who explored the mental and physical benefits of dance therapy, emphasizing its role in promoting inclusion through practical studies. Psychologist Gunel Muradova underscored the significance of general behavioral activity, highlighting the direct correlation between movement, physical activity, and mental health.

The movement and dance performances at the event's conclusion captivated the participants' interest. Certificates were then awarded to both volunteers and attendees.

The "Creative Psychology Symposium" aroused public interest and was covered in the press.

*https://report.az/medeniyyet-siyaseti/bakida-ilk-yaradici-psixologiya-simpoziumu-kecirilir/*
*https://baku.tv/id-112858*

## "2-Cİ MİLLİ ARDICIL TƏRCÜMƏ" MÜSABİQƏSİNİN YARIMFİNAL MƏRHƏLƏSİ ÜÇÜN SEÇİMLƏR BAŞLANDI



## COMMENCEMENT OF SEMI-FINAL SELECTIONS FOR THE "2ND NATIONAL CONSECUTIVE INTERPRETATION CONTEST"

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi "2-ci milli ardıcıl tərcümə" müsabiqəsinin yarımfinal mərhələsi üçün seçim turu öz işinə başlayıb. Dekabr ayının 12-də İngilis dili və ədəbiyyatı departamentinin müdiri fil.ü.f.d. Milana Abbasova, departamentin nəzdində fəaliyyət göstərən Tərcümə mərkəzinin koordinatoru və müəllimi fil.ü.f.d. Elvin Abbasbəyli, departamentin müəllimi Zamirə Qurbanova müsabiqənin seçim turu üçün Azərbaycan Universitetində olmuş və müraciət edən namizədləri dinləyib qiymətləndirmişlər.

Qeyd edək ki, seçim turu hələ başa çatmayıb və tərcümə ixtisasının tədris olunduğu digər universitetlərdə də seçim turunun keçilməsi nəzərdə tutulur.

Xatırladaq ki, müsabiqənin final mərhələsi 2024-cü ilin may ayında Xəzər Universitetinin Neftçilər kampusunda Mərmər zalda keçiriləcək.

The initial phase of selecting participants for the semi-final round of the "2nd National Consecutive Interpretation Contest," organized by Khazar University's Department of English Language and Literature, is underway. On December 12, Dr. Milana Abbasova, the head of the English Language and Literature Department, Dr.Elvin Abbasbeyli, the lecturer and coordinator of the Center of Translation and Interpretation (CTI) affiliated with the department, along with the lecturer of the mentioned department Zamira Gurbanova, visited Azerbaijan University to assess and evaluate candidates who applied.

It's important to mention that the selection process is ongoing, and selection rounds are planned at other universities offering translation programs.

Moreover, the final stage of the competition is scheduled to take place in May in the Marble Hall of Khazar University's Neftchilar campus.

# “XƏZƏR”İN ƏMƏKDAŞI VƏ TƏLƏBƏSİ DÖVLƏT MİQRASİYA XİDMƏTİNDƏ KEÇİRİLMİŞ TƏDBİRDƏ

# KHAZAR UNIVERSITY REPRESENTATIVE AND STUDENT ENGAGE IN STATE MIGRATION SERVICE EVENT

Dekabrın 18-də Dövlət Miqrasiya Xidmətində (DMX) - Beynəlxalq Miqrant Günündə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə əcnəbi gənclərin və tələbələrin iştirakı ilə “Müxtəliflikdən birliyə: Heydər Əliyevin multikulturalizm və gənclər siyasətinin miqrantların inteqrasiyasına töhfəsi” adlı tədbir keçirilib. Tədbirdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Turan Əlizadə və Çin vətəndaşı - Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin tələbəsi Yuxuan Tang iştirak etmişlər.

Azərbaycanda yaşayan əcnəbilərin ölkəmizlə bağlı düşüncələrinin ekranlaşdırıldığı “Müxtəliflikdən birliyə: Azərbaycandan miqrant səsləri” adlı videoçarx nümayiş olunub. Həmin videoçarxda Yuxuan Tang da iştirak etmişdir.

Tədbirdə əcnəbi tələbələrin iştirakı ilə “Azərbaycanı nə qədər tanıyıram?” adlı intellektual yarış da keçirilmişdir.

On December 18, an event titled "From diversity to unity: contribution of Heydar Aliyev's multiculturalism and youth policy to the integration of migrants" was hosted by the State Migration Service (SMS) to commemorate the 100th anniversary of National Leader Heydar Aliyev's birth. The gathering included the participation of foreign youth and students. Turan Alizadeh, coordinator of Khazar University's International Relations Department, and Yuxuan Tang, a Chinese citizen and student of the Graduate School of Science, Art, and Technology, participated in this event.

The presentation of a video titled "From Diversity to Unity: Voices of Migrants from Azerbaijan" showcased the perspectives of foreigners residing in Azerbaijan, expressing their thoughts about the country. Yuxuan Tang also participated in that video. The event featured an intellectual competition titled "How well do I know Azerbaijan?" involving the participation of foreign students.




*Turan Əlizadə Yuxuan Tang*

# “XƏZƏR”İN DEPARTAMENT MÜDİRİ AZƏRBAYCAN VOKALÇILARI III BEYNƏLXALQ FESTİVALININ KONSERTİNDƏ

# KHAZAR UNIVERSITY DEPARTMENT HEAD PARTICIPATES IN III INTERNATIONAL FESTIVAL OF AZERBAIJANI VOCALISTS CONCERT



*Zülfiyyə Sadıqova* *İnarə Babayeva*

Dekabrın 19-da - Azərbaycan Vokalçıları III Beynəlxalq Festivalının beşinci günündə dünya şöhrətli ifaçılar Fidan və Xuraman Qasımovalara həsr olunmuş "Sənətin işığında" adlı konsert keçirilib. Konsertdən öncə tanınmış musiqişünas,Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxış edərək, Fidan və Xuraman Qasımova bacılarının Azərbaycan musiqi mədəniyyətinin və vokal ifaçılıq sənətinin formalaşmasındakı xidmətlərindən, milli vokal ifaçılıq məktəbinin ənənələrini ləyaqətlə qoruyub yaşatmalarından bəhs edib.

Sonra Azərbaycan Respublikasının Əməkdar artisti İnarə Babayeva və Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, tanınmış pianoçu Zülfiyyə Sadıqovanın təqdimatında keçirilən konsert tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

İnarə Babayeva Azərbaycan və dünya bəstəkarlarının əsərlərini Zülfiyyə Sadıqovanın müşayiəti ilə ifa etmişdir. Zülfiyyə Sadıqova ayrıca F. Listin ‘Fa minor” konsert etüdünü də səsləndirmişdir.

Konsertdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı da iştirak etmişdir.

On December 19, on the fifth day of the III International Festival of Azerbaijani Vocalists, a concert dedicated to the renowned singers Fidan and Khuraman Gasimova was held entitled "In the Light of Art". Prior to the concert, distinguished musicologist, honored art worker, and professor Zemfira Gafarova shared insights into the contributions of sisters Fidan and Khuraman Gasimova in shaping Azerbaijani musical culture and the art of vocal

Then, the concert presented by Inara Babayeva, Honored Artist of the Republic of Azerbaijan and esteemed pianist Zulfiyya Sadighova, Honored Teacher, Head of the Department of Music and Art of Khazar University, was welcomed by the audience.

Inara Babayeva performed the works of Azerbaijani and world composers accompanied by Zulfiyya Sadighova. Zulfiyya Sadighova also performed F. Liszt's "F minor" concert etude. The founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli also participated in the concert.




## RİYAZİYYAT DEPARTAMENTİNİN ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "BAKU MATHEMATICAL JOURNAL" JURNALINDA

## AN ARTICLE CO-AUTHORED BY A MEMBER OF THE DEPARTMENT OF MATHEMATICS WAS PUBLISHED

Xəzər Universiteti Riyaziyyat departamentinin əməkdaşı Lalə Atamovanın (Cəfərova) həmmüəllifi olduğu "Asymptotics of eigenvalues and eigenfunctions of a discontinuous boundary value problem with a spectral parameter in the transmission condition" ("Ötürülmə şərtində spektral parametr olan bir kəsilən sərhəd məsələsinin məxsusi qiymətlərinin və məxsusi funksiyalarının asimptotikası") adlı məqalə "Baku Mathematical Journal" jurnalında dərc edilmişdir.

Məqalədə müəlliflər ötürülmə şərtində spektral parametr olan bir kəsilən sərhəd məsələsinin məxsusi qiymətlərinin və məxsusi funksiyalarının asimptotikasını tədqiq edirlər.

The article by Lala Atamova (Jafarova), a member of the Department of Mathematics, entitled "Asymptotics of eigenvalues and eigenfunctions of a discontinuous boundary value problem with a spectral parameter in the transmission condition" was published in the journal of "Baku Mathematical Journal".

In the paper, the authors determine asymptotics of eigenvalues and eigenfunctions of a discontinuous boundary value problem with a spectral parameter in the transmission condition.

*https://www.bakumathj.org/index.php/online-first*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "CAUCASUS STRATEGIC PERSPECTIVES" JURNALINDA

## ARTICLE BY FACULTY MEMBER FROM THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY IN 'CAUCASUS STRATEGIC PERSPECTIVES' JOURNAL

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Vasif Hüseynovun "Geopolitics of the South Caucasus in Flux: Towards a New Security Order" ("Cənubi Qafqazın dəyişkən geosiyasəti: yeni təhlükəsizlik nizamına doğru") adlı məqaləsi "Caucasus Strategic Perspectives" jurnalında (2023, Cild 4. № 2. Səhifə 61-76) dərc edilmişdir.

Qeyd edək ki, "Caucasus Strategic Perspectives" xarici və təhlükəsizlik siyasəti üzrə akademik jurnaldır və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən 2020-ci ildən ildə iki dəfə nəşr olunur.

The article by Dr. Vasif Huseynov, a lecturer at the Department of Political Sciences and Philosophy of Khazar University, entitled "Geopolitics of the South Caucasus in Flux: Towards a New Security Order " was published in the "Caucasus Strategic Perspectives" magazine (2023, Volume 4. No. 2. Pages 61-76).

Note that "Caucasus Strategic Perspectives" is an academic journal on foreign and security policy and is published twice a year by the International Relations Analysis Center from 2020.

*https://cspjournal.az/uploads/files/CSP%20Winter%202023/CSP_vol4%20issue2_Winter%20 2023_web%20(FINAL%20as%20of%2022_12_2023).pdf*

## "SİYASƏT VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ TƏDQİQATLARI NECƏ APARMAQ OLAR?" MÖVZUSUNDA ONLAYN SEMİNAR

## ONLINE SEMINAR ON "HOW TO DO RESEARCH IN POLITICS AND INTERNATIONAL RELATIONS?"

Dekabrın 20-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə İzmir Katip Çələbi Universitetinin professoru Didem Buharinin "Siyasət və beynəlxalq münasibətlərdə tədqiqatları necə aparmaq olar?" ("How to do Research in Politics and International Relations?") mövzusunda onlayn seminar seminarı keçirilib. Seminarda departament müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimləri və tələbələr iştirak ediblər.

Dr. Orxan Vəliyev tədbiri açıq elan edəndən sonra Prof. Didem Buhari öz çıxışında tədqiqat mövzusunun düzgün seçilməsinə, bu mövzuda toxunulmamış və cavablandırılmamış məsələlərin müəyyən edilməsinə, seçilmiş mövzuya qərəzsiz və obyektiv yanaşma prinsiplərinə və digər təfərrüatlara diqqət çəkmişdir. Təqdimatdan sonra doktorant tələbələrin sualları cavablandırılmışdır.

On December 20, the Department of Political Sciences and Philosophy at Khazar University organized an online seminar titled "How to do Research in Politics and International Relations?" featuring Professor Didem Bukhari from Izmir Katip Çelebi University. The event was attended by Dr. Orkhan Valiyev, the head of the department, along with faculty members and students.

After Dr. Orkhan Valiyev declared the event open, Prof. Didem Bukhari, in her presentation, emphasized the importance of appropriately selecting research topics, identifying unexplored aspects within these topics, and adhering to principles of impartiality and objectivity. Following the presentation, the questions of doctoral students were answered.

## "AZƏRBAYCAN DİLİ" FƏNN KURİKULUMUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ" MÖVZUSUNDA ELMİ-PRAKTİK GÖRÜŞ

## SCIENTIFIC AND PRACTICAL SESSION ON "ENHANCING THE CURRICULUM OF "AZERBAIJANI LANGUAGE" SUBJECT" AT THE INSTITUTE OF EDUCATION IN THE REPUBLIC OF AZERBAIJAN

Dekabrın 20-də Azərbaycan Respublikasının Təhsil İnstitutunda "Azərbaycan dili" fənn kurikulumunun təkmilləşdirilməsi" (2023) mövzusunda elmi-praktik görüş təşkil olunmuşdur. Görüşə Azərbaycan AMEA, BDU, ADPU, SDU, Xəzər Universitetindən, Dövlət İmtahan Mərkəzindən mütəxəssislər dəvət olunmuşdur.

Tədbiri giriş sözü ilə Təhsil standartları və proqramları şöbəsinin müdiri Mənsur Məhərrəmov açaraq, görüşün məqsədini iştirakçıların diqqətinə çatdırıb. Prof. Rafiq İsmayolav "Azərbaycan dili" fənn kurikulumunun hansı istiqamətdə təkmilləşdirilməsi haqqında geniş məlumat verərərək, ekspertləri məlumatlandırdı. Mövzunun təqdimatı bitdikdən sonra müxtəlif təhsil ocaqlarından dəvət olunmuş mütəxəssislərə söz verilərək, geniş müzakirlər aparıldı. Xəzər Universitetindən Dr. İlkin Əsgərov və Dr. Almaz Bədəlova mövzunun aktuallığını, orta məktəblərdə "Azərbaycan dili" fənninin tədrisi işinin inkişafında əhəmiyyətli olacağını bildirərək, mövzu ilə bağlı təklif və iradlarını, tövsiyələrini diqqətə çatdırdılar.

Sonda təşkilatçılar deyilmiş fikirlərə münasibət bildirmiş, məzmunla bağlı rəylərin yazılı formada yollanılmasını tövsiyə etmiş və görüşü yekunlaşdırmışlar.

On December 20, a scientific-practical meeting was organized at the Institute of Education of the Republic of Azerbaijan on the topic "Enhancing the Curriculum of "Azerbaijani Language" Subject" (2023). Experts from Azerbaijan National Academy of Sciences, Baku State University, Azerbaijan State Pedagogical University, Sumgait State University, Khazar University, State Examination Center were invited to the meeting.

Mansur Maharramov, the head of the Department of Educational Standards and Programs, inaugurated the meeting with an opening address, shedding light on the meeting's objectives. Professor Rafig Ismayolav delved into comprehensive insights about the direction of improving the curriculum for the "Azerbaijani language." Following the presentation, experts from diverse educational institutions were provided with opportunities to share their insights, leading to in-depth discussions. Ph.D. scholars in Philology, Ilkin Agerov and Almaz Badalova from Khazar University, emphasized the significance of the subject, highlighting its importance in advancing the instruction of the "Azerbaijani language" in secondary schools. They also brought forth their suggestions, comments, and recommendations regarding the topic.

As the session concluded, organizers encouraged participants to submit their opinions in written form, ensuring a thorough documentation of the valuable insights shared during the meeting.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ TELMAN NÜSRƏTOĞLU QULİYEVƏ DOSENT ELMİ ADI VERİLİB

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu Quliyevə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasi Kollegiyasinin 21 dekabr 2023-cü il tarixli qərarı ilə tarix elm sahəsinin Vətən tarixi ixtisası üzrə dosent elmi adı verilmişdir.

## HEAD OF THE HISTORY AND ARCHAEOLOGY DEPARTMENT, TELMAN NUSRATOGHLU GULIYEV, AWARDED THE TITLE OF ASSOCIATE PROFESSOR

Telman Nusratoghlu Guliyev, head of the Department of History and Archeology of Khazar University, was granted the title of associate professor in the field of history by the decision of the Board of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated December 21, 2023.


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
21.12.2023-cü il TARİXLİ
QƏRARI İLƏ
Telman Nüsrət oğlu Quliyevə
(adı, atasının adı, soyadı)
elmi-pedaqoji FƏALİYYƏTƏ GÖRƏ
(elmi və ya elmi-pedaqoji)
tarix ELM SAHƏSİNİN
(elm sahəsinin adı)
5503.02 - Vətən tarixi İXTİSASI ÜZRƏ
(ixtisasın şifri və adı)

DOSENT
ELMİ ADI VERİLMİŞDİR

SƏDR: (imza) Famil Mustafayev (adı, soyadı)
BAŞ ELMİ KATİB: (imza) Gülarə Tağı-zadə (adı, soyadı)
M.Y.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ XANKƏNDİDƏ

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY IN KHANKENDI

Lokal anti-terror əməliyyatı nəticəsində işğaldan azad olunmuş Xankəndi şəhər stadionunda 2023-cü il dekabrın 21-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın da iştirak etdiyi futbol üzrə Azərbaycan kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları qarşılaşıb. Prezident İlham Əliyev görüşün əvvəlindəki çıxışında torpaqlarımızın işğaldan azad olunmasında canlarından keçən şəhidləri və qaziləri xüsusi minnəttarlıqla yad edib və Azərbaycanın artıq tam müstəqil suveren bir dövlət olduğunu vurğulayıb.

Tədbirə şəhid ailələri, qazilərlə yanaşı elm adamları, jurnalistlər, sənətçilər, siyasi xadimlər olmaqla geniş bir kontingent qatılıb. Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev də müvafiq dövlət qurumunun dəvəti ilə tədbirdə iştirakçı olub.

On December 21, the teams of Agdam's "Karabagh" and Baku's MOIK met in the 1/8 final stage of the Azerbaijan Cup on football at the Khankendi city stadium, recently liberated from occupation through a local anti-terrorist operation. President Ilham Aliyev and First Lady Mehriban Aliyeva attended the event. President Aliyev, in his address, expressed gratitude to the martyrs who sacrificed their lives for the liberation of Azerbaijani lands and veterans, and emphasized the country's status as a fully independent sovereign state.

The event saw a significant presence of scientists, journalists, artists, and political figures, as well as families of martyrs and veterans. Dr. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, participated in the event upon invitation from the relevant state institution.



# "NORM SEMENT" ZAVODUNDA SAHƏ GƏZİNTİSİ
# FIELD TRIP AT "NORM CEMENT" PLANT

Dekabrın 22-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə "Norm Sement" zavoduna sahə gəzintisi təşkil olunub. Gəzintidə Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan 3 - cü kurs, eləcə də İnşaat mühəndisliyi ixtisası üzrə təhsil alan 3 - cü və 4 - cü kurs tələbələri iştirak ediblər.

Öncə şirkətin İnsan resursları üzrə supervayzeri Tamerlan Ələkbərli müəssisə haqqında geniş məlumat verib. Sonra tələbələrə sement hazırlamaq üçün əsas komponent olan sobanın işləmə prinsipi barədə izahat verilib.

"Norm Sement" zavodunun Kimya mühəndisi Rüfət Oğuztürk isə tələbələrə laboratoriya şəraiti, cihazların iş prinsipi və onlardan istifadə qaydaları haqqında danışıb.

On December 24, a field trip to the "Norm Cement" plant was organized, involving 3rd-year students in Chemical Engineering, as well as 3rd and 4th-year students in Civil Engineering. The company's Human Resources Supervisor, Tamerlan Alakbarli, provided comprehensive information about the enterprise.

Subsequently, the students received an explanation of the operational principles of the furnace, the key component in cement production.

Rufat Oguzturk, a chemical engineer at the "Norm Cement" plant, then enlightened the students about laboratory conditions, device operations, and the rules of their use.



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI BEYNƏLXALQ ELMİ KONFRANSDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Dekabrın 23-də Neftçala rayonunda "Regional İnkişaf" İctimai Birliyinin və Neftçala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "AZLİNG 2023 – Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" adlı beynəlxalq elmi konfrans keçirilib.

Neftçaladan olan dilçi alimlərin təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfransda Azərbaycanın müxtəlif ali təhsil və elm ocaqlarını, eləcə də dünyanın müxtəlif universitetlərini təmsil edən 85 alim aktual dilçilik mövzuları ilə bağlı çıxış ediblər.

Konfransda Xəzər Universitetinin Tərcümə Mərkəzinin koordinatoru Dr. Elvin Abbasbəyli, Dillər və ədəbiyyatlar departamentinin əməkdaşları - filologiya üzrə fəlsəfə doktorları Reyhan Mədətova, İlkin Əsgərov, Rasim Heydərov, Zəminə Ziyayeva, Sevinc Qəmbərova və müəllim Mənsurə Əhmədovanın, həmçinin magistrantların məruzələri də dinlənilib.

Konfransın sonunda iştirakçılar beynəlxalq sertifikatla təltif olunublar.

On December 23, an international scientific conference titled "AZLING 2023 - Azerbaijani language and modern linguistics: problems, perspectives, and challenges" took place in the Neftchala district, organized by the "Regional Development" Public Union and Neftchala district Heydar Aliyev Center.

Commemorating the 100th anniversary of National Leader Heydar Aliyev, the conference, initiated by linguist scientists from Neftchala, featured presentations from 85 scholars representing various Azerbaijani higher education and science institutions, along with participants from various international universities, addressing current linguistic issues.

Notable contributions at the conference included presentations by Dr. Elvin Abbasbeyli, the coordinator of the Khazar University Center of Translation and Interpretation (CTI), as well as members of the University's Department of Languages and Literatures - PhDs in Philology Reyhan Madatova, Ilkin Askerov, Rasim Heydarov, Zamina Ziyayeva, Sevinj Gambarova, and lecturer Mansura Ahmadova. Additionally, graduate students delivered their reports. The conference concluded with the participants receiving international certificates.



# XƏZƏRİN ƏCNƏBİ VƏ YERLİ TƏLƏBƏLƏRİ ŞAMAXIDA

# INTERNATIONAL AND LOCAL STUDENTS OF KHAZAR UNIVERSITY IN SHAMAKHI





Dekabrın 24-də Xəzər Universitetinin Əcnəbi tələbələr klubu və Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə universitetin əcnəbi və yerli tələbələri üçün Şamaxıya ekskursiya təşkil edilib.

Ekskursiyada Beynəlxalq əlaqələr ofisinin müdiri Fatimə Vəliyeva, Beynəlxalq əlaqələr ofisinin koordinatorları Arzu Bədəlova və Turan Əlizadə, eləcə də Əcnəbi tələbələr klubunun prezidenti Alisa Mustafazadə, vitse - president Abdullah Aduagba Yahaya və tədbirlər üzrə koordinator Jalə Zeynalzadə iştirak ediblər.

On December 24, Khazar University's International Students Club and International Relations Office orchestrated a Shamakhi excursion for both international and local students. Fatima Valiyeva, the director of the International Relations Office, along with coordinators Arzu Badalova and Turan Alizade, joined the President of the International Students Club, Alisa Mustafazade, Vice-President Abdullah Aduagba Yahaya, and Events Coordinator Jala Zeynalzade in leading the expedition.

Gəzinti çərçivəsində tələbələr ilkin olaraq Tarix-Diyarşünaslıq Muzeyi və orada yer alan eksponatlarla yaxından tanış olublar. Sonra isə Cümə məscidi, Yeddigünbəz türbələr kompleksi və Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasına ekskursiyalar təşkil edilib.

Məqsəd ölkənin zəngin mədəni irsinin təbliği və tanıdılması, eləcə də əcnəbi və yerli tələbələrin inteqrasiyasının möhkəmləndirilməsi olub.





During the journey, students initially acquainted themselves with the Museum of History-Ethnography and its exhibits. Subsequently, guided tours were arranged to explore the Juma Mosque, Yeddi Gumbaz Mausoleum, and the Shamakhi Astrophysical Observatory, named after Nasreddin Tusi. The primary goal was to promote the nation's rich cultural heritage and foster greater integration between foreign and local students.







*Cengiz Taplamacıoğlu*

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNDƏ TÜRKİYƏ MÜTƏXƏSSİSİNİN SEMİNARI

## PHYSICS AND ELECTRONICS DEPARTMENT HOSTS SEMINAR BY TURKISH SPECIALIST

Dekabrın 25-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Fizika və elektronika departamentində Türkiyənin Qazi Universiteti Mühəndislik fakültəsinin Elektrik- elektronika mühəndisliyi departamentinin professoru Dr. Cengiz Taplamacıoğlu "Bərpa olunan enerji mənbələri və Azərbaycan-Türkiyə tətbiqləri" mövzusunda seminar keçirib.

Seminarda universitetin müəllim və tələbə heyəti iştirak edib. Professor Cengiz Taplamacıoğlu müxtəlif növ alternativ enerji mənbələrindən, onların Türkiyə və Azərbaycanda uğurla tətbiq olunmasından danışıb.

Seminar müzakirələrlə başa çatıb.

On December 25, Dr. Cengiz Taplamacıoghlu, professor from the Department of Electrical and Electronics Engineering at Gazi University in Türkiye conducted a seminar titled "Renewable Energy Sources and Applications in Azerbaijan- Türkiye " at Khazar University's Department of Physics and Electronics within the School of Science and Engineering.

The seminar drew the attendance of faculty and students from Khazar University. Professor Cengiz Taplamacıoğlu shared insights into various alternative energy sources and their successful implementation in both Türkiye and Azerbaijan. The event concluded with engaging discussions.

## UNİVERSİTET ƏMƏKDAŞLARINA BAYRAM HƏDİYYƏLƏRİ VƏ PUL MÜKAFATLARI VERİLDİ

Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nizami Rayon Komitəsi 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Xəzər Universitetinin 5 əməkdaşını pul mükafatı və əməkdaşların uşaqlarını hədiyyə biletləri ilə mükafatlandırıb. Hədiyyə biletlərini və pul mükafatlarını əməkdaşlara Xəzər Universiteti Həmkarlar Təşkilatının sədri Əlövsət Əmirbəyli təqdim edib.

## UNIVERSITY EMPLOYEES RECEIVED HOLIDAY GIFTS AND CASH BONUSES

In celebration of December 31, World Azerbaijanis' Solidarity Day, and the New Year holiday, the Nizami District Committee of the Azerbaijan State Administrations and Public Service Employees Trade Union honored five Khazar University employees with cash bonuses and gift tickets for their children.The presentation of these bonuses and tickets was conducted by Alovsat Amirbeyli, the Chairman of Khazar University's Trade Union Organization.

# "XƏZƏR"İN MÜƏLLİMİ İSTANBULDA KEÇİRİLMİŞ QALA GECƏDƏ

Dekabrın 26-da Usuboğlu Qrup Şirkətinin İdarə Heyətinin sədri Samiral Usuboğlunun təşkilatçılığı ilə Raffles Hotels`də Türkiyə Cümhuriyyətinin və Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə qala gecə keçirilmişdir.

Tədbirdə Türkiyə rəsmiləri və iş adamları, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev, şəhid general Polad Həşimovun anası Səmayə Həşimova və digər qonaqlar iştirak etmişlər.

Açılış nitqlərindən sonra Cumhuriyyetin və Heydər Əliyevin 100 illiyi münasibətilə məxsusi hazırlanmış videoçarxlar, canlı səhnələr nümayiş olunmuşdur.

Qala gecənin konsert proqramında Musiqi və incəsənət departamentinin müəllimi, beynəlxalq mükafatlar laureatı Aşıq Ramin Karayev həm solo, həm də orkestrlə Azərbaycan aşıq havalarını ifa etmişdir.

Qala gecə böyük ziyafətlə başa çatmışdır.




*Ramin Karayev Səmayə Həşimova*

# KHAZAR UNIVERSITY LECTURER AT THE GALA NIGHT IN ISTANBUL




*Ramin Karayevə mükafat təqdim olunması*

Please parahprase each sentence of the text. On December 26, 2023, a gala night on the occasion of the 100th anniversary of the Republic of Turkey and Great Leader Heydar Aliyev was held at Raffles Hotels under the organization of Samiral Usuboglu, Chairman of the Board of Usuboglu Group Company. The event was attended by Turkish officials and businessmen, First Deputy Chairman of the State Committee on Diaspora Affairs of the Republic of Azerbaijan Valeh Hajiyev, Samaya Hashimova, the mother of martyr General Polad Hashimov, and other guests.

Following the opening speeches, specially prepared videos and live scenes were shown on the occasion of the 100th anniversary of the Republic and Heydar Aliyev.

Ashuq Ramin Karayev, a lecturer of the Department of Music and Art, laureate of international awards, performed Azerbaijani ashuq airs both solo and with the orchestra in the concert program of the gala evening.

The gala night concluded with a lively and festive party.

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "MATHEMATICA" JURNALINDA

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Nonlinear fourth-order dynamic equations on unbounded time scales" ("Qeyri-məhdud zaman şkalasında dördüncü tərtib qeyri-xətti dinamik tənliklər") adlı birinci müəllifi olduğu məqalə "Mathematica" jurnalında (2023, Cild 65 (88), № 2) dərc edilmişdir. Qeyd edək ki, "Mathematica" jurnalı "Scopus" verilənlər bazasında indeksləşdirilib.

Bu məqalədə müəlliflər dördüncü tərtib qeyri-xətti dinamik tənlikləri qeyri-məhdud zaman şkalasında tədqiq edirlər. Bu məsələlərin həllərinin varlığı və yeganəliyi isbat edilir.

## ARTICLE BY PROFESSOR OF THE DEPARTMENT OF MATHEMATICS IN "MATHEMATICA" JOURNAL

The article titled "Nonlinear fourth-order dynamic equations on unbounded time scales" by Bilander Allahverdiyev, professor of the Khazar University Mathematics Department, was published in the "Mathematica" journal (2023, Vol. 65 (88), No. 2). Note that "Mathematica" journal is indexed in "Scopus" database.

In this paper, the authors investigate nonlinear fourth-order dynamic equations on unbounded time scales. The existence and uniqueness of the solutions for these problems are obtained.

*https://math.ubbcluj.ro/~mathjour/fulltext/2023-2/allahverdiev-tuna.pdf*
*https://math.ubbcluj.ro/~mathjour/*

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "MALAYA JOURNAL OF MATEMATİK" JURNALINDA

## AN ARTICLE BY A PROFESSOR OF THE DEPARTMENT OF MATHEMATICS IN "MALAYA JOURNAL OF MATHEMATICS"

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "On the dissipative conformable fractional singular Sturm-Liouville operator" ("Uyğun fraksiyalı dissipativ sinqulyar Şturm-Liuvill operatoru haqqında") adlı həmmüəllifi olduğu məqalə "Malaya Journal of Matematik" jurnalında (2023, Cild 11, № 4) dərc olunmuşdur. Qeyd edək ki, "Malaya Journal of Matematik" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

Məqalədə uyğun fraksiyalı dissipativ sinqulyar Şturm-Liuvill operatoru tədqiq edilir. Bu operator üçün Kreyn teoreminin köməyi ilə tamlıq teoremi isbat edilir.

The article co-authored by Khazar University Mathematics Department professor Bilander Allahverdiyev entitled " On the dissipative conformable fractional singular Sturm-Liouville operator" in Malaya Journal of Mathematics" (2023, Vol. 11, No. 4). Note that "Malaya Journal of Mathematics" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

In this study, a dissipative conformable fractional singular Sturm-Liouville operator is studied. For this operator, a completeness theorem is proved by Krein's theorem.

*https://www.malayajournal.org/index.php/mjm/article/view/158/1331*
*https://www.malayajournal.org/index.php/mjm*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "TÜRK YURDU" JURNALINDA




Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin 1911-ci ildən fəaliyyət göstərən "Türk Yurdu" jurnalının Türkiyə Respublikasının 100 illiyinə həsr edilmiş "Respublikanın 100-cü ilində Türk xarici siyasəti" adlı xüsusi nömrəsində (dekabr 2023, sayı 436) "Respublika dövründə Türkiyə-Azərbaycan münasibətləri" mövzusunda məqaləsi dərc olunmuşdur.

Dr. Vəliyev məqaləsində iki ölkə münasibətlərinin Qafqaz İslam Ordusu, Cümhuriyyət sonrası, Soyuq müharibə dövrü, müstəqillik dövrü, Qarabağ zəfəri və Şuşa bəyannaməsi mərhələlərini qısa şərh etmişdir. Müəllifin məqalədə gəldiyi nəticəyə görə, Qarabağ zəfəri və Şuşa bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı münasibətlər institutlaşma mərhələsinə daxil olmuşdur.

## ARTICLE BY HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT IN "TÜRK YURDU" JOURNAL

The head of the Political Sciences and Philosophy Department, Dr. Orkhan Valiyev, has authored an article entitled "Türkiye-Azerbaijan Relations during the Republic Period," published in the special issue (December 2023, number 436) of the "Türk Yurdu" journal focusing on "Turkish Foreign Policy in the 100th Year of the Republic". Note that, the journal has been in operation since 1911.

In this article, Dr.Valiyev provides insights into the historical stages of relations between the two countries, including the Caucasus Islamic Army, the post-Republic era, the Cold War period, the era of independence, the Karabakh victory, and the Shusha declaration. The author concludes that, with the signing of the Karabakh victory and the Shusha declaration, the relationship between the two countries has transitioned into a stage of institutionalization.

*https://www.turkyurdu.com.tr/dergi-detay.php?id=529*

energies

## İQTİSADİYYAT VƏ MENECMENT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARININ ELMİ MƏQALƏSİ "ENERGIES" JURNALINDA

Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin əməkdaşları - Prof. Məhəmməd Nuriyev, Dr. Əziz Nuriyev və Dr. Ceyhun Məmmədovun həmmüəllifi olduqları "Neft hasil edən ölkələr üçün bərpa olunan enerjiyə keçid məsələsinin ssenariyə əsaslanan qeyri-səlis çox kriteriyalı qərar qəbuletmə modelləri əsasında həlli: Azərbaycan nümunəsi" adlı elmi məqalə nüfuzlu "Energies" jurnalında (Scopus CiteScore 5.5 və Web of Science Impact Factor 3.2) dərc olunmuşdur.

Tədqiqatın məqsədi neft və qaz hasil edən ölkədə bərpa olunan enerjiyə keçid üçün ən uyğun ssenarinin seçilməsinə imkan verən modelləri hazırlamaqdır. Təklif olunan modelin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, qərar matrisində alternativlər enerji resursları toplusundan və onlardan istifadə səviyyəsindən ibarət ssenarilər kimi təqdim olunur.

## SCIENTIFIC ARTICLE BY THE ACADEMIC STAFF OF ECONOMICS AND MANAGEMENT DEPARTMENT PUBLISHED IN "ENERGIES" JOURNAL

The scientific article titled "Renewable Energy Transition Task Solution for Oil-Producing Countries Using Scenario-Driven Fuzzy Multiple-Criteria Decision-Making Models: The Case of Azerbaijan", authored by the academic staff of Economics and Management Department of Khazar University, Prof. Mahammad Nuriyev, Dr. Aziz Nuriyev, and Dr. Jeyhun Mammadov, has been published in the highly esteemed journal "Energies" (Scopus CiteScore 5.5 and Web of Science Impact Factor 3.2).

The objective of this paper is to develop models that allow the selection of the most appropriate scenario for renewable energy transition in an oil- and gas-producing country. The distinguishing feature of the proposed model is that alternatives in the decision matrix are presented as scenarios, composed of a set of energy resources and the level of their use.

*https://www.mdpi.com/1996-1073/16/24/8068*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "KRİTER" JURNALINDA

## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT CONTRIBUTES ARTICLE TO 'KRITER' JOURNAL

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "Azerbaycan-Ermenistan Anlaşmasına Doğru mu?" adlı məqaləsi Türkiyənin aylıq "Kriter" gurnalında ("Kriter", ocak, 2024-cü il, 8, nömrə 86) işıq üzü görüb. Jurnal Türkiyədə nüfuzlu dərgi hesab olunur.

Müəllif məqalədə sülh sazişi ilə bağlı son müzakirələrdən nəticə çıxararaq bu sazişin imzalanacağı vaxtın çox da uzaq olmayacağını əsaslandırıb.

Dr. Orkhan Valiyev, the head of Khazar University's Department of Political Sciences and Philosophy, has contributed an article "On the way to an agreement between Azerbaijan and Armenia?" published in the Turkish monthly journal "Kriter" (January 2024, Issue 86). Widely recognized as an influential publication in Türkiye, the journal provides a platform for scholarly discourse.

Within the article, Dr. Valiyev reflects on recent discussions surrounding a peace agreement, asserting that the signing of this agreement is imminent based on his conclusions.

*https://kriterdergi.com/yazar/orhan-valiyev/azerbaycan-ermenistan-anlasmasina-dogru-mu*




## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN DOKTORANTININ MƏQALƏSİ "JOURNAL OF AREA STUDIES" JURNALINDA

## DOCTORAL STUDENT FROM POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT CONTRIBUTES ARTICLE TO 'JOURNAL OF AREA STUDIES'

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin doktorantı Burcu Temür`ün "Kirgiz halkindan Kirgizistan devletine: etno-sembolizm bağlaminda bir analiz" ("From the Kyrgyz People to the Kyrgyz State: An Analysis in the Context of Ethno-Symbolism") adlı məqaləsi "Journal of Area Studies"də (2023, Cild 2. № 2. Səhifə 158-178) dərc edilmişdir. Qeyd edək ki, jurnal Türkiyənin Dergipark elmmetrik bazasında yer alır.

The article of Burcu Temür, currently pursuing a doctorate in the Department of Political Sciences and Philosophy at Khazar University, entitled "From the Kyrgyz People to the Kyrgyz State: An Analysis in the Context of Ethno-Symbolism" was published in "Journal of Area Studies" (2023, Volume 2. No. 2. Pages 158-178). Notably the journal is included in Dergipark scientometric database of Türkiye.

*https://dergipark.org.tr/tr/pub/ajas/issue/82145/1349230*

# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİ MÜƏLLİMİNİN MƏQALƏSİ "ISSUES IN ETHNOLOGY AND ANTHROPOLOGY" JURNALINDA

# ARTICLE BY THE LECTURER OF LANGUAGES AND LITERATURES DEPARTMENT PUBLISHED IN 'ISSUES IN ETHNOLOGY AND ANTHROPOLOGY' JOURNAL"

Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyevin həmmüəllifi olduğu "Embodiment of the Manhood in Folklore: Keeping Secret From Women in Azerbaijan" ("Folklorda kişiliyin təcəssümü: real və virtual sosial mühit kontekstində Azərbaycanda qadınlardan sirr saxlama") adlı məqalə "Issues in Ethnology and Anthropology" jurnalında (2023, cild 18, № 4, s. 1193-1217) dərc edilib. Qeyd edək ki, Serbiyanın Belqrad Universitetinin Etnologiya və antropologiya departamentinin dərgisi olan bu jurnal "Web of Science" verilənlər bazasında indeksləşdirilir.

Məqalədə ilk dəfə olaraq, sosial-psixoloji komplekslərin real və virtual sosial-mədəni mühitdəki metaforik-simvolik ifadəsi tədqiqata cəlb edilmiş, sosial-antropoloji yanaşma işığında Azərbaycan mühitində kişi sosial qruplarının qadınlardan "sirr saxlamaqla" bağlı stereotip düşüncəsi diqqət mərkəzinə gətirilmişdir. Müəyyən olunmuşdur ki, kişi kollektivində sirr saxlamaq qabiliyyəti xüsusilə yüksək dəyərləndirilir və qadınlara münasibətdə bu düşüncə stereotip şəklində özünü göstərir. Kişilərin qadınlardan sirr saxlamaqla bağlı olan stereotipləri isə yeni yaranan İnternet folklorunda ənənədən fərqli olaraq, gülüş və ironiya ilə qarşılanır.

The article " Embodiment of the Manhood in Folklore: Keeping Secret From Women in Azerbaijan " co-authored by Hikmet Guliyev, a lecturer of the Department of Languages and Literatures of Khazar University, PhD in philology, associate professor, was published in "Issues in Ethnology and Anthropology" journal (2023, volume 18, No. 4, pp. 1193-1217). Notably, this journal, affiliated with the Department of Ethnology and Anthropology at the University of Belgrade, Serbia, is indexed in the "Web of Science" database.

For the first time in the article, the metaphorical-symbolic expression of socio-psychological complexes in the real and virtual socio-cultural environment was involved in the research, and in the light of the socio-anthropological approach, the stereotypical thinking of male social groups about "keeping secrets" from women in the Azerbaijani environment was brought to the center of attention. The research reveals that the ability to keep a secret is particularly esteemed within male collectives, forming a stereotype in relation to women. And the stereotypes of men keeping secrets from women are met with laughter and irony, contrary to tradition, in emerging Internet folklore.

*https://eap-iea.org/index.php/eap/article/view/1212/1134*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ “AZƏRBAYCAN MÜƏLLİMİ” QƏZETİNDƏ

## ARTICLE BY THE HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY IN THE 'AZERBAIJANI TEACHER' NEWSPAPER

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin Qarabağ Universitetinə dair məqaləsi "Azərbaycan müəllimi"qəzetinin 2023-cü il 8 dekabr tarixli nömrəsində dərc edilib.

Məlum olduğu kimi, Qarabağ Universiteti Prezident İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı əsasında Xənkəndi şəhərində yerləşən universitetin bazasında təsis ediləcəkdir. Elm və Təhsil Nazirliyinin qərarına əsasən universitet 2024-2025-ci tədris ilindən etibarən fəaliyyətə başlayacaq.

The article authored by the head of the Department of Political Sciences and Philosophy, Dr.Orkhan Valiyev, about Karabakh University was published in the December 8, 2023, issue of the "Azerbaijani Teacher" newspaper.

As it is known, Karabakh University will be established on the basis of the order of President Ilham Aliyev dated November 28, 2023 at the base of the university located in Khankendi. According to the decision of the Ministry of Science and Education, the university will commence its operation from the academic year 2024-2025.

*https://www.muallim.edu.az/news.php?id=27473*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ FÜYUZAT TV-DƏ

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY AT FUYUZAT TV

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü il dekabrın 29-da Füyuzat TV-nin qonağı olub. Çəkiliş Xəzər Universiteti Neftçilər kampusunun kitabxanasında baş tutmuşdur. Proqramda Azərbaycanın milli tərəqqisi məsələsi "Türkçülük", "Azərbaycançılıq" kimi başlıqlar çərçivəsində müzakirə edilmişdir.

Dr. Vəliyev Azərbaycanda modern milli inkişafın, fikrin on doqquzuncu əsrin sonlarından etibarən türkçülük kontekstində cərəyan etdiyini, bununla bərabər fərqli və suveren bir dövlət olmağın ali şərtləri nəzərə alındıqda Azərbaycanın siyasi sistemini, sosial nizamını Azərbaycançılıq çərçivəsində inşa etdiyini ifadə etmişdir. Proqramda 44 Günlük Vətən müharibəsindən sonra institutlaşan Türk Dövlətlər Təşkilatı və Türk Dünyasının gələcəyi də müzakirə edilmişdir.

Füyuzat TV kitabxana rəhbərliyinə çəkiliş üçün yaratdıqları imkandan ötrü təşəkkür etmişdir.

The head of the department of Political Sciences and Philosophy, Dr. Orkhan Valiyev, appeared a guest of FUYUZAT TV on December 29, 2023. The shooting took place in the library of the Khazar University Neftchilar campus. During the program, the discussion centered around Azerbaijan's national progress, exploring themes like "Turkishness" and "Azerbaijanism."

Dr. Orkhan Valiyev highlighted that Azerbaijan's contemporary national development and ideological landscape evolved from Turkism in the late nineteenth century. Simultaneously, he emphasized the importance of considering the unique conditions of being a distinct and sovereign state, shaping Azerbaijan's political system and social order under the framework of Azerbaijanism. The program also delved into the formation of Turkic States following the 44-day war and contemplated the future of the Turkic world.

Dr. Valiyev expressed gratitude to the library management for facilitating the shooting.

*https://www.youtube.com/watch?si=CgvK0Pf4vn_tifyQ&v=OIcE6AYQcy0&feature=youtu.be*



# DÜNYANIN DÖRD BİR YANINDA YENİ - 2024-CÜ İL BÖYÜK ÇOŞQU VƏ SEVİNCLƏ QARŞILANIB









# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

**Xəzər Universiteti**

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texno-logiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəb-lərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi